# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir


SƏS

№ 192 (7360)

21 oktyabr 2025-ci il.
Qiymıəti 60 qəpik


## Azərbaycan-Vatikan münasibətlərində davamlı əməkdaşlıq



4

## Azərbaycan – Qazaxıstan: Etibarlı dostluq, möhkəm qardaşlıq!



2

*Azərbaycan dünyada özünü etibarlı tərəfdaş kimi təsdiq edərək beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə nail olub. Qeyd etmək lazımdır ki, Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir.*

# Mahmud Abbas iqamətgahını Ramallahdan Qəzzaya köçürür



14

## Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib



5

## "Ramiz Mehdiyev dövlətə xəyanətin simvoluna çevrilib"



9

## Kənd və şəhər məktəbləri arasında keyfiyyət fərqləri: səbəblər və həll yolları



13

## Ədalət hissini itirmək nankorluqdur



8

## Bankların müştərinin yaxınları ilə əlaqə qurmaları qanunidirmi?



16






*Azərbaycan dünyada özünü etibarlı tərəfdaş kimi təsdiq edərək beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə nail olub. Qeyd etmək lazımdır ki, Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir. Xalqlarımızın dil, din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması bu əlaqələrə təsir göstərən mühüm amillərdən biridir. Ölkəmizin Mərkəzi və Orta Asiyanın türkdilli dövlətləri arasındakı münasibətləri yüksələn xətlə inkişaf etməsinə Azərbaycanın Qazaxıstanla olan əlaqələri də öz töhfəsini verir.*

# Azərbaycan – Qazaxıstan: Etibarlı dostluq, möhkəm qardaşlıq!



*Prezident İlham Əliyev: "Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur"*

Azərbaycan-Qazaxıstan əlaqələrinin bütün sahələrdə uğurla inkişafı, iki ölkə arasında imzalanan sənədlər strateji münasibətlərin və müttəfiqlik əlaqələrinin daha da mökəmlənməsinə, ölkələrimiz arasında əməkdaşlığın ildən-ilə güclənməsinə gətirib çıxarır. Azərbaycan və Qazaxıstan çoxəsrlik dostluq ənənələrini nəinki qoruyub saxlamağa, genişləndirməyə, Azərbaycan-Qazaxıstan münasibətlərini strateji tərəfdaşlıq səviyyəsində inkişaf etdirməyə nail olub. Bu qardaşlıq münasibətlərimizin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Qazaxıstan Respublikasına dövlət səfərinə gəlib. Astana şəhərinin Beynəlxalq Aeroportunda Dövlətimizin başçısını Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev qarşılayıb.

## Etibarlı dostluq, möhkəm qardaşlıq!

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində "Kazinform"a eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, həmçinin yaşıl enerji sahəsində birgə işin perspektivlərindən və Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən bəhs edib.

Müsahibə təkcə siyasi bəyanat deyil, Azərbaycan-Qazaxıstan əlaqələrinin keçdiyi tarixi yolun, bu gün formalaşmış etibarlı tərəfdaşlığın, strateji əməkdaşlığın təzahürüdür. İki ölkə arasında münasibətlər sırf diplomatik çərçivəni aşaraq türk birliyi ideyasına, qarşılıqlı etimada və dərin inteqrasiyaya söykənən çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Azərbaycan Prezidentinə ünvanlanan "Azərbaycan ilə Qazaxıstan arasında siyasi münasibətlərin hazırkı səviyyəsini necə xarakterizə edərdiniz və qarşıdakı səfərdən gözləntiləriniz nədən ibarətdir?" sualını dövlətimizin başçısı belə cavablandırıb: "İkitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur. Bu, son üç ildə mənim qardaş ölkəyə yeddinci səfərimdir. Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır". Həmin müddət ərzində isə Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bu səfərlər dövlətlərarası hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müsbət təsirini göstərib.

## "TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI TÜRK XALQLARI VƏ ÖLKƏLƏRİ ARASINDA ƏMƏKDAŞLIĞIN VƏ HƏMRƏYLİYİN MÖHKƏMLƏNMƏSİNƏ MÜHÜM TÖHFƏLƏR VERİB"

Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra dünyaya yenidən açıldı, region və dünya dövlətləri, beynəlxalq təşkilatlarla əlaqələri daha da genişləndirdi, bir sıra qurumlarla yeni əlaqələr yaratdı. Heç şübhəsiz, Türk dünyasının bir araya gəlməsi ən mühüm məsələlərdən biri kimi diqqəti cəlb edir. "Azərbaycan və Qazaxıstan, həmçinin çoxtərəfli formatlarda, xüsusilə beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi və digərləri çərçivəsində də səmərəli əməkdaşlıq edir. Ölkələrimiz beynəlxalq arenada bir-birini dəstəkləyir, bir çox məsələlərdə ortaq mövqeyi bölüşür", - deyə Prezident bildirib. Azərbaycanın türkdilli ölkələrlə, xalqlarla yaxınlaşması, eyni genetik, tarixi köklərə malik olduğumuz dövlətlərlə daha da yaxından təmas qurması üçün müxtəlif siyasi-iqtisadi, mədəni-humanitar platformalar meydana gəlib, iş birliyi rəsmiləşdirən müqavilələr imzalanıb. Bu gün işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının bərpasında qardaş Qazaxıstan da öz töhfəsini verir. İşğaldan azad olunmuş Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşası Qazaxıstanın Azərbaycana qardaş köməyidir. "Bu Mərkəz mühüm mədəni-maarif müəssisəsinə çevrilib, hazırda orada 100-ə yaxın uşaq təhsil alır", – deyən Prezident bildirib ki, biz ötən illər ərzində möhkəm hüquq-müqavilə bazası - təqribən 170 sənəd işləyib hazırlamışıq, siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaratmışıq. Bu il 20 illiyini qeyd etdiyimiz Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Bu sənəd Azərbaycan-Qazaxıstan əməkdaşlığının müxtəlif sektorlarda inkişafının etibarlı təməlini qoyub və ötən illər ərzində ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib".

TDT çərçivəsində ölkələrimiz arasında mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlıq sistemli və ardıcıl xarakter daşıyır. Birgə təşəbbüslər festivalların, sərgilərin, ədəbi gecələrin və konfransların təşkilindən tutmuş elm və təhsil müəssisələri arasında fəal əməkdaşlığa qədər geniş istiqamətləri əhatə edir. Türk Dövlətləri Təşkilatı çərçivəsində tədqiqatların aparılmasında, elm və təhsil əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayan Beynəlxalq Türk Akademiyası uğurla fəaliyyət göstərir. Biz TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirik. Bu, Azərbaycan ilə Qazaxıstan arasında etimadın yüksək səviyyəsinin daha bir göstəricisidir".

## "BU GÜNƏ QƏDƏR ÖLKƏDƏ QAZAXISTAN KAPİTALI İLƏ 250-YƏ YAXIN KOMMERSİYA STRUKTURU QEYDƏ ALINIB"

Azərbaycan və Qazaxıstan arasında imzalanmış sənədlər, eləcə də, "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" iki qardaş ölkənin gələcək təhlükəsizlik və əməkdaşlıq perespektivləri baxımından mühüm əhəmiyyət kəsb edən strateji sənəddir. İki qardaş ölkənin münasibətləri tarixində tamamilə yeni bir mərhələ yaratmaqla daha dərin inkişaf və inteqrasiyaya gətirib çıxarıb. Son illər Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlıq da uğurla inkişaf edir. Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlığın spektri çox genişdir. "Hər iki ölkə ardıcıl olaraq birgə təşəbbüslər həyata keçirir, iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığı genişləndirir. Bu proses məqsədyönlü dövlət siyasəti, biznes icmalarının nümayəndələri arasında fəal dialoq, qarşılıqlı faydalı və tərəfdaşlıq münasibətlərinin inkişafına ümumi sadiqlik sayəsində mümkün olub", - deyən Prezident diqqətə çatdırıb ki, bu günə qədər ölkədə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitinə yüksək etimadı təsdiq edir və iqtisadi qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır.

***Zümrüd BAYRAMOVA***

# Vaşinqtonda imzalanmış sənədlər regionun inkişafı üçün geniş imkanlar yaradır

## Prezident İlham Əliyev ABŞ Mərkəzi Komandanlığının komandanını qəbul edib

*Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ Mərkəzi Komandanlığının komandanı və Hərbi Dəniz Qüvvələrinin admiralı Bred Kuperi qəbul edib.*

AZƏRTAC xəbər verir ki, qonaq Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dair əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı bu məsələdə Prezident Donald Trampın xüsusi rolunu qeyd etdi. Vaşinqtonda imzalanmış sənədlərin regionun inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını dedi.



Söhbət zamanı son dövrlərdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafı məmnunluqla qeyd edildi, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# "Euronews": Azərbaycan Müqəddəs Taxt-Tacla əlaqələri gücləndirir







## Aparıcı dünya mediası Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfərini diqqətdə saxlayıb

Dünya mediası Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfəri çərçivəsində keçirdiyi görüşləri və iştirak etdiyi tədbirləri geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, İtaliyanın aparıcı "Askanews" və "Italpress" xəbər agentlikləri, eləcə də "Agenparl" və "Notizie Tiscali" portallarının yaydığı materiallarda Birinci vitse-prezident Mehriban Əliyevanın səfərinin gərgin gündəmdə və çoxsaylı yüksəksəviyyəli görüşlərdə öz əksini tapdığı, Azərbaycan ilə Vatikan arasında mükəmməl ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi və getdikcə fəallaşan mədəni, elmi və diplomatik əməkdaşlıq çərçivəsində baş tutduğu bildirilir.

Diqqətə çatdırılır ki, Azərbaycanın Birinci vitse-prezidenti və ailə üzvləri səfər çərçivəsində oktyabrın 16-da Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar. Yazılarda Heydər Əliyev Fondunun və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilənin 2021-ci il martın 4-də imzalandığı xatırladılır. Bu layihənin Vatikan ilə Azərbaycan arasında çoxillik əməkdaşlığın yeni mərhələsi olduğu vurğulanır. Materiallarda bu il sentyabrın 10-da Heydər Əliyev Fondu, Azərbaycanın Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın "Bambino Gesu" pediatrik xəstəxanası arasında əməkdaşlığa dair anlaşma memorandumunun imzalandığı xatırladılıb. Bildirilib ki, bu əməkdaşlıq nadir xəstəliklər, molekulyar genetika, klinik diaqnostika və digər müvafiq sahələrin Azərbaycanda inkişafına mühüm töhfə verəcək. Azərbaycanlı alim və tədqiqatçılara qabaqcıl elmi yanaşmalara yiyələnmək və müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalarda araşdırmalar aparmaq imkanı yaradacaq.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşdüyü bildirilir. Qeyd olunur ki, görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti, eyni zamanda, ikinci Katolik Kilsəsinin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib.

Yazılarda qeyd olunub ki, Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb, irəli sürdüyü təşəbbüslərə görə Birinci vitse-prezidentə və ölkəmizdə ikinci Katolik Kilsəsinin tikintisinə ayrılmış torpaq sahəsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın rəhbərini Azərbaycana səfərə dəvət edib.

Azərbaycanın Birinci vitse-prezidentinin həmin gün, həmçinin Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə görüşdüyü, müzakirələr zamanı hər iki tərəfin qarşılıqlı münasibətlərin müsbət inkişafından məmnunluq ifadə etdiyi bildirilib.

Pietro Parolin Bakıda ikinci Katolik Kilsəsinin tikintisini təqdirəlayiq hal kimi qiymətləndirib, bunun Azərbaycanda bütün dinlərə göstərilən qayğı və hörmətin təzahürü olduğunu deyib. Vatikanın dövlət katibi Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması münasibətilə ölkəmizi təbrik edib, Vatikanın regionda sülhün bərqərar olmasını birmənalı şəkildə dəstəklədiyini bildirib.

Məqalələrdə, eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşdüyü və birlikdə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak etdikləri, eləcə də Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olduğu, Vatikan Apostol Kitabxanası və Apostol Arxivinə baş çəkdiyi, Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə birgə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışında iştirak etdiyi diqqətə çatdırılır.

Bundan başqa, "Euronews" telekanalının saytında "Azərbaycan Vatikanda aparılan bərpa işləri ilə Müqəddəs Taxt-Tacla əlaqələri gücləndirir" sərlövhəli məqalə dərc olunub. Yazıda ölkəmizin Vatikanda tarixi katakombaların bərpasına və paralel olaraq Azərbaycanda yeni Katolik Kilsəsinin tikintisinə dəstək verməklə Müqəddəs Taxt-Tac və katolik dünyası ilə əlaqələrini gücləndirdiyi vurğulanır.

Diqqətə çatdırılır ki, IV əsrə aid tarixi Kommodilla katakombaları ölkəmizin dəstəyi ilə Müqəddəs Taxt-Tacda tam bərpa olunub və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva layihənin açılış mərasimində iştirak edib. Bərpa layihəsi Heydər Əliyev Fondu və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında 2021-ci il martın 4-də imzalanan müqaviləyə əsasən həyata keçirilib. Bildirilib ki, katakombaların yerləşdiyi məkan XVIII əsrdə aşkar olunub, ilkin tədqiqatlar 1900-cü ildən başlanıb. Erkən xristianlıq dövrünə aid ilk artefaktların mövcud olduğu katakomba Felisio və Adauktus adlı xristian əzabkeşlərinin dəfn olunduğu məkan kimi də tanınır və orta əsrlərdə möminlərin ziyarətgahı olub.

Materialda bildirilir ki, Azərbaycan Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikana rəsmi səfəri çərçivəsində Roma Papası XIV Leo ilə görüşüb, pontifik Azərbaycanla dinlərarası dialoqun aparıldığını vurğulayıb.







# Azərbaycan-Vatikan münasibətlərində davamlı əməkdaşlıq

*Ölkəmiz müstəqil dövlət olaraq, dünyanın bir çox ölkələri ilə yanaşı, katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti ilə də diplomatik münasibətləri yüksək səviyyədə qurub. İkitərəfli münasibətlərin qurulmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Ulu Öndər Heydər Əliyevin 1997-ci il sentyabrın 26-da Vatikana rəsmi səfəri və Roma papası II İohann Pavellə görüşü bu əlaqələrin dərinləşməsində və möhkəmlənməsində mühüm rol oynayıb. 2002-ci ildə Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin, ilk dəfə olaraq, Azərbaycana rəsmi səfəri zamanı Ulu Öndər Vatikan rəhbərini dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün bəşəriyyətin dostu və dünya vətəndaşı adlandırmışdı. II İohann Pavel isə Azərbaycanı Şərq ilə Qərbin arasında qapı olan bir məkan kimi xarakterizə etmişdir.*



## Mehriban xanım Əliyeva: "Bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir"

Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın Müqəddəs San-Marçellinio və Pietro katakombaları əsaslı təmir və bərpa edilmişdir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilmişdir. Bu Vatikanda ilk müsəlman ölkəsinin sərgisi idi. 2016-cı il 2 oktyabr tarixində katoliklərin lideri Roma Papası Fransiskin Azərbaycana səfəri dinlərarası, məzhəblərarası toqquşmaların baş verdiyi bir dönəmdə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra bu, Vatikan başçısının Azərbaycana ikinci səfəri idi. Vatikan başçıları, adətən, əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Lakin Azərbaycan istisnadır. Azərbaycanda katoliklərin sayının, bir neçə yüz nəfər olmasına baxmayaraq, respublikamızda hökm sürən dini sabitlik Vatikan tərəfindən də maraqla qarşılanır. Prezident İlham Əliyev Roma Papasının Azərbaycana məlum səfərini tarixi hadisə adlandırmışdır. Dövlət başçısı bu səfərin Vatikan-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəyini qeyd etmişdi: "Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər, bir də onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək..."

### "HƏR GƏLİŞİMİZDƏ BİZİM DOSTLARIMIZIN SAYI ARTIR"

Qeyd etdiyimiz kimi, mövcud əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri də müstəsnadır. Bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfərdə olub. Belə ki, oktyabrın 16-da səfər çərçivəsində Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar. Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirib. "Heydər Əliyev Fondunun dəstəyi ilə bir tərəfdən mürəkkəb, lakin digər tərəfdən bizi çox ilhamlandıran, böyük enerji verən bərpa işlərini birgə həyata keçirdik", - deyə o əlavə edib. Paskuale Yakobone layihə çərçivəsində Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının üzvlərinin 2024-cü ilin iyulunda Azərbaycana yaddaqalan səfərini xatırladıb. O, bu işin yüksək səviyyədə başa çatdırılmasına görə Heydər Əliyev Fonduna dərin təşəkkürünü bildirib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca son 14 ildə altıncı səferidir. "Mən çox şadam ki, biz bu illər ərzində çox gözəl əməkdaşlıq yaratmışıq. Buraya hər gəlişimizdə bizim dostlarımızın sayı artır", - deyə Birinci vitse-prezident qeyd edib.

### "BU PRİNSİPLƏR HƏM BİZİM DÖVLƏT SİYASƏTİMİZİN ƏSASIDIR, HƏM DƏ HƏYAT TƏRZİMİZDİR"

Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu vurğulayan Mehriban Əliyeva deyib: "Bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir. Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir".

Qeyd edilib ki, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin Vatikana səfəri zamanı 2021-ci il martın 4-də Fond və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilə imzalanıb. Katakombaların yerləşdiyi məkan XVIII əsrdə aşkar olunub, ilkin tədqiqatlar 1900-cü ildən başlanıb. Erkən xristianlıq dövrünə aid ilk artefaktların mövcud olduğu katakomba Felisio və Adauktus adlı xristian əzabkeşlərinin dəfn olunduğu məkan kimi də tanınır və orta əsrlərdə möminlərin ziyarətgahı olub. Katakombada ilk xristian əzabkeşi San Stefano, İsa peyğəmbərin həvari Pietroya Cənnətin açarlarını təqdim etməsi və digər mövzularda freskalar müstəsna dini və tarixi əhəmiyyət daşıyır. Ötən əsrin 50-ci illərində bu ərazidə yaşayış binalarının tikintisi katakombanın statikasına mənfi təsir göstərib. Heydər Əliyev Fondunun göstərdiyi dəstək katakombanın böyük arxeoloji dəyərə malik olan bu hissəsini uçmaq təhlükəsindən qoruyub. Bərpa prosesi zamanı işçilərin sağlamlığı üçün təhlükəsiz, ekoloji cəhətdən təmiz materialların istifadəsi də daxil olmaqla, müasir metod və texnologiyalar tətbiq edilib. Məhsulların möhkəmləndirilməsi prosesində nanotexnologiyadan və boyalı səthlərin emalı üçün lazer texnologiyasından istifadə olunub. Bütün materiallar yeraltı mühitlə yüksək uyğunluq nəzərə alınmaqla seçilib.

Qeyd edək ki, Heydər Əliyev Fondu Vatikanda genişmiqyaslı bərpa işlərini fəal şəkildə maliyyələşdirməklə dünya mədəni irsinin qorunmasına mühüm töhfə verir. Bu təşəbbüslər Müqəddəs Taxt-Tac tərəfindən səmərəli əməkdaşlıq və mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi nümunəsi kimi yüksək qiymətləndirilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 16-da Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb. Müqəddəs Taxt-Taca son 14 il ərzində altıncı dəfə səfər etdiyini xatırladan Birinci vitse-prezident Mehriban Əliyeva bu illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib. Birinci vitse-prezident bu illər ərzində bir sıra mühüm layihələrin bərpasında Heydər Əliyev Fondunun dəstəyini diqqətə çatdıraraq, gələcəkdə də bu fəaliyyəti davam etdirəcəklərini vurğulayıb. Bu gün Müqəddəs Kommodilla katakombalarının açılışında birgə iştirak etdiklərini deyən Mehriban Əliyeva bunun Heydər Əliyev Fondunun böyük layihələrindən biri olduğunu diqqətə çatdıraraq deyib: "Roma elə şəhərdir ki, həm yerin altı, həm də üstü demək olar səma altında açıq muzeydir. Bizim fəaliyyətimiz elə qurulub ki, bəzi layihələr sona çatan kimi yeni layihələrə start veririk. Bu, çox davamlı əməkdaşlıqdır və mən onu yüksək dəyərləndirirəm".

Müasir dövrümüzdə mövcud əlaqələr daha da dərinləşir. Dövlətimizin başçısının çıxışlarının birində Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayıb.

Dövlət başçısı mədəniyyət sahəsindəki əlaqələrimizin xüsusi əhəmiyyət daşıdığını və bu əməkdaşlığın ikitərəfli münasibətlərin yaxşı əlaməti olduğunu bildirib. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycan-Vatikan əlaqələri bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər. Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib





***Oktyabrın 20-də Dövlət Statistika Komitəsində Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Dövlət Statistika Komitəsinin əməkdaşları əvvəlcə Fəxri xiyabana gələrək müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb.***







Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin Komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, Azərbaycanın da həmmüəllif kimi qoşulduğu BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli Qətnaməsinə uyğun olaraq beş ildən bir keçirilən Ümumdünya Statistika Günü ölkəmizdə də təntənəli şəkildə qeyd edilir: "BMT-nin Statistika Komissiyasının 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş 56-cı sessiyasında BMT Baş katibinin Ümumdünya Statistika Günü ilə bağlı təqdim olunmuş məruzəsinə əsasən bu əlamətdar gün cari ildə beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilir. Bu günün təsis edilməsində əsas məqsəd cəmiyyətin bütün üzvlərinin, xüsusilə beynəlxalq təşkilatların, elmi dairələrin, medianın, rəsmi statistikanın bütün istehsalçı və istifadəçilərinin diqqətinin müasir dövrün problemlərinin həlli üçün adekvat informasiya təminatında mühüm rol oynayan statistikaya yönəldilməsidir".

Komitə sədri vurğulayıb ki, qlobal mütərəqqi təşəbbüslərə böyük önəm və töhfə verən Azərbaycanda Ümumdünya Statistika Günü ilk dəfə 2015-ci ildə təntənəli şəkildə qeyd olunmuşdur: "Lakin 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzündən sonra başlayan İkinci Qarabağ müharibəsi ilə əlaqədar Ümumdünya Statistika Gününün ölkəmizdə qeyd edilməsi mənəvi prinsiplər və etik normalar baxımından mümkünsüz hesab edilmiş və bununla bağlı Dövlət Statistika Komitəsi tərəfindən beynəlxalq təşkilatlara və dünya ölkələrinin statistika qurumlarına müraciət ünvanlanmışdır".

Tahir Budaqov qeyd edib ki, bu il – Vətən Müharibəsindəki möhtəşəm Zəfərimizin 5 illiyində Ümumdünya Statistika Gününün ölkəmizdə də yüksək səviyyədə, təntənəli şəkildə qeyd olunması məqsədilə Dövlət Statistika Komitəsi kollegiyasının 2025-ci il 27 avqust tarixli, 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumdünya statistika gününün qeyd edilməsinə dair Tədbirlər planı"na uyğun olaraq, 24-26 sentyabr tarixlərində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu keçirilmişdir. Onun sözlərinə görə, Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətlərinin, tanınmış elmi ictimaiyyət xadimlərinin və ekspertlərin qatıldıqları Forum milli statistika sistemlərinin inkişafı, rəsmi statistika sahəsində yeni hədəflərin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət daşımış, eləcə də qlobal statistik təşəbbüslərin, beynəlxalq və qabaqcıl təcrübələrin bölüşülməsində səmərəli platforma kimi beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə öz töhfəsini vermişdir: "Fürsətdən istifadə edərək Forum iştirakçılarına ünvanlandığı müraciətə, Ümumdünya Statistika Günü münasibətilə təbrikinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bir daha ölkə statistikləri adından təşəkkürümü bildirirəm. Qeyd etmək istərdim ki, ölkə başçısının müraciətində statistikanın əhəmiyyətinin ildən-ilə artaraq cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün mühüm vasitələrdən birinə çevrildiyini vurğulaması, Azərbaycanda milli statistika sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyi, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalının daim diqqət mərkəzində saxlanıldığı barədə dəyərli fikirlər bildirməsi statistikləri ruhlandırmaqla yanaşı, ölkəmizin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistika məlumatlarının vaxtında və keyfiyyətlə hazırlanması ilə bağlı məsuliyyətimizi daha da artırır".

*Ardı Səh. 6*

# Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib



Əvvəli-Səh-5

Komitə sədri qeyd edib ki, Tədbirlər planına uyğun olaraq yerli statistika orqanlarında da Ümumdünya Statistika Gününün qeyd edilməsi ilə bağlı tədbirlər görülmüş, bu günlə əlaqədar Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılmış, statistik maarifləndirmə məqsədilə materiallar hazırlanaraq mediada çıxışlar edilmiş, "Statistika xəbərləri" elmi-praktik jurnalının Ümumdünya Statistika Gününə həsr olunmuş xüsusi buraxılışı hazırlanmışdır: "Xüsusi buraxılışda BMT-nin Statistika Şöbəsinin direktoru, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, Bolqarıstan, Koreya Respublikası, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkiyənin statistika qurumlarının rəhbərləri tərəfindən Azərbaycan statistiklərinə Ümumdünya Statistika Günü ilə bağlı ünvanlanmış təbriklər, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin və Mərkəzi Bankın sədrlərinin, Qazaxıstan, Gürcüstan, Serbiya, Macarıstan, Belarus və Türkiyə milli statistika qurumlarının rəhbərlərinin və yüksək vəzifəli əməkdaşlarının, eləcə də ölkənin tanınmış elm adamlarının statistikanın aktual məsələlərinə həsr olunmuş məqalələri əksini tapmışdır. Gənclər arasında statistikaya marağın artırılması, onlar arasından statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiada isə xüsusi əhəmiyyəti ilə seçilən tədbirdir".

Tahir Budaqov bildirib ki, rəsmi statistikaya olan inam və etibarın qorunub saxlanılması, rəsmi statistikanın əsas prinsiplərinə sadiq qalaraq və "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarını rəhbər tutaraq bəşəriyyətin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistik məlumatların vaxtında və keyfiyyətlə hazırlanaraq istifadəçilərə təqdim edilməsi bu gün statistiklərin qarşısında duran ən mühüm vəzifədir: "Müsbət haldır ki, ölkələrin sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsi üçün informasiya təminatında xüsusi rola malik olan milli statistika sistemləri təşəkkül tapdığı dövrdən etibarən beynəlxalq səviyyədə müəyyən edilmiş fundamental dəyərləri qoruyub saxlamış və böyük inkişaf yolu keçərək daim yeni perspektiv hədəflərə doğru irəliləmişdir. Milli və qlobal çağırışlara layiqincə cavab verməyi özünün əsas hədəfi hesab etməklə qlobal statistika ailəsinin bir üzvü kimi Azərbaycanın milli statistika sistemi də son illər ərzində daim tərəqqiyə can atmış, ciddi islahatlar yolu ilə yeni tələblərə uyğun inkişaf etdirilmişdir".

Azərbaycanda milli statistika sisteminin inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən Komitə sədri əlavə edib ki, ölkədə onun rəhbərliyi ilə yaradılmış hüquqi baza əsasında bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli statistika sisteminin formalaşdırılması prosesinə başlanılmış, sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın inkişafına güclü təkan vermiş, bu sahədə ardıcıl qəbul olunmuş 6 dövlət proqramı uğurla icra edilmişdir: "Bu proqramlar çərçivəsində köklü islahatlar həyata keçirilmiş, o cümlədən milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və s. istiqamətlərdə mühüm tədbirlər görülmüşdür. Bunun nəticəsidir ki, ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən aparılmış qlobal qiymətləndirmədə xarici ekspertlər həyata keçirilən islahatları yüksək qiymətləndirərək Azərbaycanın milli statistika sisteminin beynəlxalq standartlara uyğun olduğunu qeyd etmiş, Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində nüfuzlu beynəlxalq audit təşkilatları tərəfindən ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür. Dövlət Statistika Komitəsi Azərbaycanda bu uyğunluq sertifikatına layiq görülən ilk mərkəzi icra hakimiyyəti orqanı olmaqla yanaşı, MDB məkanında da bu sertifikatı əldə edən ilk statistika qurumudur. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə qiymətləndirilməsinin nəticələrinə görə Dövlət Statistika Komitəsi son illərdə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşmışdır".

Komitə sədrinin sözlərinə görə, son illərdə baş verən qlobal siyasi, sosial və iqtisadi proseslər fonunda çevik qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün etibarlı statistikanın təşkili zərurəti bu gün statistiklərin qarşısında yeni və həlli vacib daha mürəkkəb vəzifələr qoyur, informasiya texnologiyalarının sürətli inkişafı, alternativ, qeyri-ənənəvi məlumat mənbələrinin yaranması isə statistik proseslərin fasiləsiz modernizasiyasını, güclü potensiala malik kadrların formalaşdırılmasını tələb edir: "Bununla əlaqədar hesab edirik ki, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının daha da gücləndirilməsini, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsini şərtləndirir. Bu məqsədlə də Dövlət Statistika Komitəsi tərəfindən 2026-2030-cu illərdə rəsmi statistikanın inkişafına dair növbəti hədəflər artıq müəyyən edilmişdir. Yeni hədəflərin icrası demoqrafiya və əhali sakinliyi, milli hesablar, kənd təsərrüfatı, sənaye, nəqliyyat və turizm, işçi qüvvəsi, ev təsərrüfatları büdcələri, əhalinin fasiləsiz təhsildə iştirakı, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğu ilə bağlı aktual statistik məlumatların əldə olunmasına, eləcə də statistikanın yeni sahələri kimi formalaşmaqda olan yaşıl inkişaf, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalarla bağlı yeni göstəricilər üzrə statistik istehsalın təşkilinə, inzibati məlumat mənbələrindən istifadəni genişləndirməklə respondentlərin üzərinə düşən statistik yükün azaldılmasına, beynəlxalq səviyyədə makroiqtisadi müqayisələr üçün ən mühüm beynəlxalq statistika standartı kimi qəbul olunan Milli Hesablar Sisteminin yenilənmiş 2025-ci il versiyasının tətbiqi ilə beynəlxalq müqayisəliliyi təmin etməklə informasiya təminatının yüksəldilməsinə, eləcə də statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsinə, milli statistika sisteminin fəaliyyətini qiymətləndirməklə növbəti strateji inkişaf prioritetlərinin müəyyən olunmasına, ümumilikdə rəsmi statistikanın dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir".











Tahir Budaqov çıxışının sonunda fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq rəsmi statistika istehsalı prosesinə öz töhfəsini verən hər bir şəxsi bu əlamətdar gün münasibətilə təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

Təbirdə çıxış edən Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev Ümumdünya Statistika Günü ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən gənclər arasında statistikaya marağın artırılması, onlar arasından statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiadanın xüsusi əhəmiyyətindən bəhs edərək belə tədbirlərin gənclər üçün statistika elmi, habelə ölkənin sosial-iqtisadi həyatında baş verən hadisə və proseslər haqqında daha geniş rəsmi statistik məlumatları əldə etmək imkanları yaratdığını bildirib.

Statistik olimpiadanın yekunlarına dair hesabat məruzəsi ilə çıxış edən Dövlət Statistika Komitəsi sədrinin müavini, təşkilat komitəsinin sədri Yusif Yusifov qeyd edib ki, olimpiadada ümumilikdə 3355 nəfər şagird, 198 nəfər tələbə iştirak etmişdir: "Şagirdlər arasında keçirilmiş olimpiadanın nəticələrinə görə, Qusar rayonu Hil kəndi Kərim Kərimov adına tam orta ümumtəhsil məktəbin 11-ci sinif şagirdi Qurbanova Günel Yafəs qızı 1-ci, Kəngərli rayonu Qıvraq qəsəbə tam orta məktəbin 11-ci sinif şagirdi Novruzov Suat Ziya oğlu 2-ci, İmişli şəhəri Aslan Eminov adına 7 nömrəli tam orta ümumtəhsil məktəbin 9-cu sinif şagirdi Alışov Əli Elməddin oğlu 3-cü, tələbələrdən isə Bakı Ali Neft Məktəbi, "Biznesin idarə edilməsi" ixtisası, 5-ci kurs tələbəsi Xəlilli Murad Çingiz oğlu 1-ci, 4-cü kurs tələbəsi Aslanov Arif Mirabbas oğlu isə 2-ci, Azərbaycan Dövlət Aqrar Universiteti, "Marketinq" ixtisası, 3-cü kurs tələbəsi Hacıyev Ülvi Qubad oğlu 3-cü yeri tutmuşdur".

Statistik olimpiadanın final mərhələsinə keçmiş tələbə və şagirdlərə sertifikat və hədiyyələr, olimpiadanın qaliblərinə isə diplom və hədiyyələr təqdim olunmuş, xatirə şəkilləri çəkilmişdir.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 iyun 2025-ci il tarixli sərəncamı ilə təltif edilmiş Komitə əməkdaşlarına orden və medallar təqdim olunub. Təltif olunan əməkdaşlar dövlət başçısına öz minnətdarlıqlarını bildiriblər. Sonda media nümayəndələrinin suallarını cavablandırılıb.

# Müasir dövrdə rəsmi statistikanın önündə duran əsas çağırışlar

***BMT Baş Assambleyasının 2010-cu ilin fevralında keçirilən 41-ci sessiyasında BMT-nin Statistika Komissiyası rəsmi statistikanın əldə etdiyi nailiyyətləri qeyd etmək, qlobal inkişafda rəsmi statistik məlumatların oynadığı mühüm rolu vurğulamaq və bu sahədə yeni formalaşan çağırışlara diqqəti cəlb etmək məqsədilə 20 oktyabr 2010-cu il tarixini Ümumdünya Statistika Günü kimi qeyd etməyi təklif etmiş, Baş Assambleya 3 iyun 2010-cu ildə qəbul etdiyi 64/267 saylı qətnamə ilə 20 oktyabr 2010-cu il tarixinin birinci "Ümumdünya Statistika Günü" kimi keçirilməsi barədə qərar qəbul etmişdir. 2015-ci ildə Baş Assambleya 96/282 saylı qətnamə ilə 20 oktyabr 2015-ci il tarixinin ikinci Ümumdünya Statistika Günü kimi keçirilməsi, eləcə də hər beş ildən bir oktyabrın 20-də Ümumdünya Statistika Gününün qeyd edilməsini bəyan etmişdir.***

BMT-nin Statistika Komissiyasının 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş 56-cı sessiyasında Ümumdünya statistika günü ilə bağlı BMT Baş katibinin məruzəsi təqdim olunaraq bu il ümumdünya statistika günün beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır.

2025-ci ildə qeyd ediləcək Ümumdünya Statistika Günü ərəfəsində 24-26 sentyabr tarixlərində keçirilmiş "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumuna Azərbaycan tərəfi ev sahibliyi etmişdir. Forum milli statistika sistemlərinin modernizasiyası, rəsmi statistikada süni intellektin tətbiqi, smart texnoogiyalardan statistika sahəsində istifadə, müxtəlif məlumat bazalarına inteqrasiya imkanları kimi bir çox mövzuların müzakirəsi və təcrübə mübadiləsi baxımından mühüm platforma rolunu oynamışdır. Forumda Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətləri, tanınmış elmi ictimaiyyət xadimləri və ekspertlər iştirak etmiş və "Statistik islahatlar və inkişaf perspektivləri", "Statistikanı dəyişdirən innovasiyalar" və "Beynəlxalq müqayisələr proqramı" mövzularında keçirilən sessiyalarda müasir statistikanın aktual məsələləri müzakirə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Forum iştirakçılarına ünvanladığı müraciətdə qeyd olunduğu kimi, süni intellekt kimi müasir çağırışlar statistika sahəsində yeni metodologiyaların, alət və yanaşmaların işlənib hazırlanmasını, gələcək hədəflərin düzgün müəyyənləşdirilməsini zəruri edir və rəsmi statistika sahəsində müasir texnologiyalara, süni intellekt və rəqəmsal transformasiyaya əsaslanan islahatların aparılması xüsusi əhəmiyyət kəsb edir.

Son illər ərzində rəqəmsal texnologiyaların sürətlə inkişaf etməsi rəsmi statistik məlumatların istehsalı və yayımlanması sahəsində də bir çox irəliləyişlərə səbəb olmuşdur. Rəqəmsallaşma rəsmi statistika orqanlarının fəaliyyətinə əhəmiyyətli şəkildə təsir göstərərək, statistik məlumatların əhatəliliyi, dövriliyi, istifadə asanlığı və keyfiyyətinin artmasına gətirib çıxarmışdır. Belə ki, məlumatların toplanmasında baş verən transformasiya sayəsində ənənəvi kağız sorğu vərəqələri elektron sorğu vərəqələri ilə əvəz edilmiş, toplanan məlumatların mərkəzi statistika sistemlərinə ötürülməsi sürətlənmiş, peyk müşahidəsi məlumatlarından rəsmi statistika sahəsində istifadə imkanları genişlənmişdir. Statistik məlumatların əlçatanlığının artması və informasiya texnologiyaları sahəsində baş verən irəliləyişlər məlumatların toplanması, emalı və yayımlanması kimi rəsmi statistikanın bütün aspektlərinə təsir etməklə Big data (İrihəcmli məlumatlar), Data mining, süni intellekt və digər məlumat mənbələrindən istifadəni şərtləndirir və rəsmi statistikanın önündə yeni çağırışlar qoyur.

Rəqəmsallaşan dünyada ən önəmli məsələlərdən biri rəsmi statistikanın məlumatların toplanması, işlənməsi və yayımlanması prosesində texnoloji yeniliklərə uyğunlaşması, məlumat istifadəçilərinin artan gözləntilərinə cavab verməsi və yeni formalaşan məlumat ekosistemini dəstəkləməsidir. Rəsmi statistika orqanları həm internet məlumatlarından istifadəni, həm də özəl məlumat istehsalçıları ilə əməkdaşlığı genişləndirməli, eləcə də öz potensiallarını tam reallaşdırmaq üçün məlumatların istehsalı ilə yanaşı onların istifadəsi və tətbiqini də dəstəkləməlidirlər.

Hazırda statistika orqanları tərəfindən əhali, turizm və miqrasiya statistikası sahəsində mobil telefon məlumatlarından (passiv şəkildə toplanan) istifadə artmaqdadır. İndoneziya, Yeni Zelandiya, Koreya, Braziliya, Gürcüstan və bir çox ölkələrin statistika orqanları yerli Mobil Şəbəkə Operatorları ilə əməkdaşlıq sayəsində həm məlumatların toplanmasında operativliyi artırmış, həm də məlumatların toplanmasına çəkilən xərci azaltmışlar. Estoniya Mərkəzi Bankı tərəfindən mobil telefon məlumatlarından istifadə turizm statistikası sahəsində görülən işləri 4 dəfə sürətləndirmiş və turistlər üzərində olan statistik yükü tamamilə azaltmışdır. İndoneziya statistika qurumunun 2017-ci ildən etibarən Mobil telefon məlumatlarından istifadəni genişləndirməsi sayəsində daxili turizm sorğusuna cəlb olunan 8000 sayıcı 8 Big data ilə işləyə bilən işçilərlə əvəz edilmişdir.

Lakin bu tip məlumatlara girişin müəyyən üstünlüklərinin olmasına baxmayaraq, müəyyən çağırışları da vardır. Bu məlumatlardan istifadə edərkən statistika orqanları 2013-cü ildə BMT Statistika Komissiyası tərəfindən qəbul edilmiş Rəsmi statistikanın əsas prinsiplərindən biri olan "konfidensiallıq" prinsipinə (6-cı prinsip) əməl etməli, mövcud texniki imkanları qiymətləndirməli və yeni əmədaşlıq modellərini nəzərdən keçirməlidirlər. Əməkdaşlıq imkanları mobil şəbəkə operatorlarının əməkdaşlıq üçün açıqlığından və hər bir ölkənin milli qanunvericiliyindən asılı olaraq müxtəlif formalarda ola bilər.



Müasir dövrdə rəsmi statistika orqanları ilə yanaşı ənənəvi olmayan məlumat istehsalçılarının sayının sürətlə artması, məlumatlar üzərində rəsmi statistikanın monopolyasının getdikcə azalması rəsmi statistika orqanları qarşısında müəyyən tələblər qoyur. Özəl şirkətlər elektron vasitələrdən istifadə etməklə müxtəlif kommunikasiya şəbəkələri vasitəsilə (onlayn ticarət saytları, əyləncə platformaları və sair) əhatəli məlumat bazaları yaratmağa nail olmuşlar. Bu məlumatlar biznes sektoruna biznes modellərini inkişaf etdirmək, yeni trendləri aşkar etmək və bizneslə bağlı qərarlar qəbul etmək üçün böyük imkanlar yaradır. Bu məlumat bazalarına giriş hazırda kəskin bazar rəqabəti, məxfilik və digər səbəblərə görə məhdudlaşdırılmışdır.

Lakin baş verən texnoloji yeniliklər göstərir ki, yeni formalaşan müxtəlif məlumat mənbələri ilə inteqrasiya nəticəsində rəsmi statistika gələcək istehsal prosesində bu mənbələrdən istifadə etməklə bir çox sahələrdə yalnız müəyyən məlumat boşluqlarını doldurmaq üçün ənənəvi metodlardan istifadə edəcəkdir ki, bu da statistika orqanlarına məlumatların təhlili, istifadəçilərlə kommunikasiya, metodoloji inkişaf və sair fəaliyyətlərə diqqəti artırmağa imkan verəcəkdir.

Dövlət idarəetmə sistemində rəqəmsallaşma səviyyəsinin getdikcə artması statistik məlumatların inzibati mənbələrdən daha az xərclə əldə etmək imkanı verməklə RSO-nın işinə əlavə dəstək verir. Lakin inzibati mənbələrdən məlumatların toplanmasının artması imkanlar yaratmaqla bərabər, rəsmi statistika sahəsində müəyyən çağırışlar da meydana gətirir. Belə ki, Big data elminin inkişaf etdiyi və məlumat istehsalı ilə bağlı müxtəlif aktorların meydana gəldiyi müasir dövrdə rəsmi statistika orqanları məlumat ekosistemində öz mərkəzi funksiyalarını qorumalı, paralelçiliyə yol verməməli, vahid təsnifat və metodlardan istifadəni təşviq etməlidirlər. Bunun üçün dövlət orqanları arasında koordinasiya, qəbul edilmiş vahid norma və standartlar olmalıdır.

Bununla yanaşı qeyd etmək vacibdir ki, müxtəlif məlumat istehsalçıları məlumatları əsasən kommersiya məqsədilə, daxili idarəetmə və fərdi qərarların qəbulu üçün topladığı halda, statistika orqanları ictimai əhəmiyyəti olan, rəsmi statistikanın prinsiplərinə, beynəlxalq təsnifat və standartlara əsaslanan, yalnız iqtisadi məqsədlər üçün deyil, demoqrafik, sosial, ekoloji və dövlət siyasətinin həyata keçirilməsi üçün əhəmiyyət kəsb edən digər sahələrin vəziyyəti haqqında da məlumatlar toplayaraq həm dövlət idarəetmə orqanlarını, həm də biznes dairələri kimi digər maraqlı tərəfləri də ardıcıl və etibarlı statistik məlumatlarla təmin edir, onların ehtiyaclarına cavab verərək ümumi ictimai mənafeyə xidmət edirlər.

Rəsmi statistika orqanları istifadəçilərin keyfiyyətli statistik məlumatlarla təmin edilməsi sahəsində öz aparıcı rollarını qoruyub saxlamaq üçün rəsmi statistikanı yeni çağırışlara uyğun olaraq daim təkmilləşdirilməli, dövlətlərin apardığı siyasətlərin informasiya təminatını yaxşılaşdırmalı, məlumat istifadəçilərinin cari və gələcək ehtiyaclarını düzgün qiymətləndirərək gələcəklə bağlı strateji planlaşdırma apararkən bu ehtiyacları nəzərə almalıdırlar. Məlum olduğu kimi, iqlim dəyişmələrinə qarşı mübarizə qlobal səviyyədə aparılan mübarizədir. Statistika orqanları da iqlim dəyişmələrinə qarşı mübarizəyə hansı töhfə verəcəkləri barədə düşünməli, bu sahədə qlobal və yerli siyasəti həyata keçirən təşkilatlarla əməkdaşlıq edərək onların informasiya ehtiyaclarına dəstək verməlidirlər. Bununla yanaşı nəzərə alınmalıdır ki, iqlim dəyişikliyi diqqət çəkən əsas sosial problemlərdən biri olmaqla geniş sahədə məlumatların toplanmasını zəruri edir ki, bu da praktiki baxımdan yalnız statistika orqanları tərəfindən toplana bilməz. Bunun üçün prosesə həm əlaqəli dövlət orqanları, həm də institutlar, sənaye assosiasiyaları və digər maraqlı tərəflər da cəlb olunmalıdır.

İqlim dəyişikliyi ilə bağlı rəsmi statistika orqanlarının əsas rolu müvafiq sahə ilə bağlı statistik informasiya ilə ictimaiyyəti məlumatlandırmaqdır. Bu rol həm BMT Statistika Komissiyası tərəfindən qəbul edilmiş Rəsmi statistikanın əsas prinsiplərində (Prinsip 1), həm də Paris Sazişindən irəli gələn İqlim Gücləndirilməsi üzrə Fəaliyyət prinsiplərində əks olunmuşdur.

Aparılan araşdırmalar dünyanın bir çox regionunda iqlim dəyişikliyinin təsiri, xüsusilə onun sağlamlıq, iqtisadiyyat və təbiətə qarşılıqlı təsirinə dair məlumatların mövcudluğunda əhəmiyyətli boşluqlar olduğunu göstərir. Həmçinin müvafiq sahə ilə bağlı məlumatların əhatəliliyi, əlçatanlığı və vaxtlı-vaxtında olmasını ilə bağlı çətinliklər mövcuddur.

İqtisadiyyat və ətraf mühitlə bağlı dövlət qərarlarının verilməsində ən önəmli məsələlərdən biri də statistik və geoməkan məlumatlarının inteqrasiyası, statistika orqanları ilə Milli Geoməkan İnformasiya Agentlikləri arasında effektiv əməkdaşlığın inkişafından asılıdır. Bununla bağlı BMT-nin Statistika Komissiyası və Qlobal Geoməkan Məlumatlarının İdarə edilməsi üzrə Ekspert Komitəsi tərəfindən birgə işlənib hazırlanmış "Qlobal Statistik Geoməkan Çərçivəsi (GSGF), İkinci Nəşr" adlı beynəlxalq standart RSO-nı üçün rəsmi statistika sahəsində geoməkan məlumatlarından istifadə əlçatanlığını artırmaqla struktur yanaşma təqdim edir. Bu beynəlxalq standart geoməkan məlumatlarından istifadə zamanı 5 prinsipi əsas götürməyi tövsiyyə edir:

statistik vahidlər coğrafi baxımdan kodlaşdırılmalı və milli səviyyədə vahid fundamental geoməkan infrastrukturdan istifadə edilməli; statistik vahidlər coğrafi kodlaşdırma koordinatlarından istifadə edərək məlumatlarını məlumat idarəetmə sisteminə daxil etməli; müqayisəlilik və ardıcıllığı təmin etmək məqsədilə məlumatlar yayımlanarkən ümumi coğrafi amillər nəzərə alınmalı; məlumatlarla bağlı standartlarda və proseslərdə statistik sistemlə geoməkan sistemi arasında əməkdaşlıq mövcud olmalı; geoməkan məlumatları əlçatan və istifadə edilə bilən olmalıdır.

Geoməkan məlumatları rəsmi statistika üçün yerin müşahidəsi, urbanizasiya, əhalinin miqrasiyası, ətraf mühitin çirklənməsi, torpaqlardan istifadə və iqlim dəyişikliyi kimi sahələrdə yeni məlumat mənbəyi olmaqla, həmçinin siyahıyaalınma və müayinələr kimi statistik müşahidələrin keyfiyyətini, sürətini və səmərəliliyini artırmağa imkan verir.

Məlumat və informasiya mühitinin sürətlə dəyişdiyi müasir dövrdə statistika orqanları əməkdaşlarının xüsusi təlimlərdə (big data, süni intellekt və s.) fəal iştirakını təmin etməli, məlumatların toplanması, emalı və yayımlanması ilə bağlı yeni standartların işlənib hazırlanması zamanı maraqlı tərəflərlə əməkdaşlığı gücləndirməli, statistika sisteminin modernizasiyasını sürətləndirməlidirlər. Nəzərə alsaq ki, müasir dövr süni intellekt və açıq məlumat mənbələrinin geniş yayıldığı bir dövrdür, statistika orqanları məlumatları yalnz ənənəvi məlumat istifadəçiləri tərəfindən istifadə oluna biləcək şəkildə deyil, həm də süni intelekt tərəfindən oxunub təhlil edilə bilən formatda hazırlamalıdırlar. Rəsmi statistika orqanları bu çağırışlara çevik şəkildə cavab verməklə statistik məlumatların əsas təminatçıları kimi cəmiyyətdə etibarlı mövqelərini möhkəmləndirə və yeni inkişaf istiqamətlərinə nail ola bilərlər. Son onilliklər ərzində rəsmi statistikanın geniş şəkildə modernizasiyaya məruz qalması və baş verən texnoloji dəyişiklərə uğurla uyğunlaşması onu göstərir ki, gələcəkdə də rəsmi statistika yeni çağırışlara uğurla cavab verəcəkdir.

***İlkin Şahvələdov***
***Dövlət Statistika Komitəsi Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Qeyri-dövlət xarici borc və beynəlxalq investisiyalar statistikası sektorunun müdiri***

# Ədalət hissini itirmək nankorluqdur

ANALİZ

***Siyasət aləmində uğur qazanmaq, nailiyyət əldə etmək heç də hər kəsə nəsib olmur. Yetkin, dərin elmi-siyasi biliklərə malik uzaqgörən şəxslər siyasətdə uğur qazana, xalqın qəlbində özünə rəğbət yarada bilər. Birmənalı şəkildə demək olar ki, Azərbaycanda belə xarakterə və xüsusiyyətlərə malik yeganə siyasətçi yalnız və yalnız Prezident İlham Əliyevdir. Prezident İlham Əliyev milli və vətənpərvərlik ruhuna malik şəxsiyyətdir, mənəvi dəyərlərə, adət -ənənələrimizə bağlıdır, dünənə hörmət, bu gününə rəğbət, gələcəyin hədəflərini müəyyənləşdirib, onların həyata keçirilməsinə çalışmaq Onun həyat amalıdır, siyasi bilik və bacarığına görə O, fenomen liderdir. Ən kritik anlarda, çətin məqamlarda səbir nümayiş etdirən, dözümlü olmaq, dövlətin mənafeyini, xalqın maraqlarını hər şeydən üstün tutmaq Prezident İlham Əliyevin fəaliyyət istiqamətlərindəndir.***



Məhz bu cür müsbət, uğurlu keyfiyyətlərinə görə Prezident İlham Əliyev dünya siyasət nəhəngləri arasında ən sayılan-seçilən liderlərdən hesab olunur. Dünyanın bir nömrəli dövlətinin bir nömrəli lideri olan ABŞ prezidenti Donald Tramp fəxrlə "Azərbaycan Prezidenti İlham Əliyev mənim dostumdur", - deyə bildirir. Beynəlxalq aləmdə sülh gündəliyi yazan lider kimi Prezident İlham Əliyev Misirdə Qəzza ilə bağlı keçirilən sülh sammitinə dəvət olunan 20 ölkə liderindən bir idi. Bu, qürur yaradan haldır. Çünki Azərbaycanın üçrəngli bayrağı Misirdə 20 ölkənin bayraqları sırasında dalğalandı. Təbii ki, buna görə Prezident İlham Əliyevə minnətdarıq. Onun düzgün, ağıllı, uzaqgörən siyasəti ölkəmizə onlarla dövlətin həsəd apara biləcəyi nailiyyət qazandırıb.

Dünya siyasi arenasında böyük hörmət sahibi olan Prezident İlham Əliyev ölkə vətəndaşlarının, dünya azərbaycanlılarının ən dəyərli, hörmətli şəxsiyyəti olaraq qəbul edilir. Ona görə yox ki Prezident İlham Əliyev ölkəmizə sosial, iqtisadi sahədə nailiyyətlər qazandırmaqla yanaşı, 44 günlük Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımızı azad etməklə xalqımıza qürur yaşatdı, dövlətimizin gücünə yeni güc əlavə etdi, həm də Cənab İlham Əliyev hələ gənclik illərindən dövlət siyasətini tam şəkildə mənimsəmiş, Azərbaycan maraqlarını hər şeydən üstün tutaraq yorulmadan çalışmışdır. Prezident İlham Əliyevin 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet ordusunun Bakıda törətdiyi qanlı qırğına sərt münasibətini bildirdi. Hansı ki, o ağır, çətin dönəmlərdə belə bir addım atmaq, Qorbaçovu və onun Bakıdakı əlaltılarını tənqid etmək olduqca təhlükəli görünürdü. Buna baxmayaraq, Cənab İlham Əliyev özünün və doğmalarının həyatı üçün ciddi təhlükələrin yarana biləcəyindən qorxmayaraq Azərbaycan milləti və xalqı üçün böyük fədakarlıq göstərdi, cəsarət nümunəsi ortaya qoydu.

## Siyasi irsə xəyanət bağışlanmaz cinayətdir

2003-cü il Prezident seçkilərində Cənab İlham Əliyevin xalqın dəstəyi ilə Prezident seçilməsindən sonra həyata keçirilən uğurlu siyasət onu təsdiqlədi ki, xalq seçimində yanılmayıb, həqiqətən də Prezident İlham Əliyev seçki ərəfəsi verdiyi bütün vədlərini yerinə yetirməklə, xalq və dövlət üçün gördüyü xeyirli, gərəkli işləri ilə fenomen şəxsiyyətdir. Prezident İlham Əliyev zəhmət çəkən, əmək sərf edən hər bir ölkə vətəndaşına diqqət göstərməsi, onları qiymətləndirməsi ilə də özünə dərin hörmət qazandırıb. Ən ucqar kənd və qəsəbələrdə yaşayan və çalışdığı sahədə uğurlara imza atan neçə-neçə sadə vətəndaşımız Prezident İlham Əliyevin Sərəncamı ilə orden və medallarla təltif olunub. Prezident İlham Əliyev dövlətin və xalqın maraqları uğrunda cəsarətlə mübarizə aparan ictimai-siyasi xadimlərin, nüfuzlu şəxsiyyətlərin fəaliyyətini yüksək qiymətləndirib, onlara rəğbətini nümayiş etdirib, vəzifələrə irəli çəkməklə etimad göstərib. Prezident İlham Əliyev O Şəxsiyyətdir ki, Ulu Öndər Heydər Əliyevin komandasında təmsil olunmuş şəxslərə də həmişə hörmətlə yanaşıb. Faktlara istinad etməklə qeyd etmək olar ki, Prezident İlham Əliyev Ulu Öndərin komandasının üzvlərinin böyük bir qismi ilə siyasi hakimiyyətini davam etdirib, onların uzun illər iqtidarda təmsil olunmasına şərait yaradıb.









Zamanı çatanda isə bu şəxslər yüksək dövlət təltifləri ilə mükafatlandırılaraq, hörmətlə təqaüdə yola salınıblar. Məsələn, sabiq baş nazir Artur Rasizadə "İstiqlal", "Şöhrət", "Şərəf" ordenləri ilə təltif olunub. O, təqaüddə olduğu dövrdə belə Prezident İlham Əliyev Artur Rasizadəni, onun xidmətlərini unutmayıb, Azərbaycan dövlətinə sadiqliyini dövlətin ən ali ordeni ilə qiymətləndirib və ona "Heydər Əliyev" ordenini şəxsən özü təqdim edib, sabiq baş naziri Ulu Öndərin və özünün sadiq dostu kimi yüksək dəyərləndirib. Eynilə, baş nazirin müavinləri Elçin Əfəndiyev, Abid Şərifov, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov və digər məmurlar da diqqətdən kənarda qalmayıblar, dövlətin ali mükafatları ilə təltif edilərək, təqaüdə yola salınıblar.

Təbii ki, idarəetmənin həyata keçirilməsində qüsurlar, çatışmazlıqlar ola bilər. Bu da təbiidir. Ən azı iş olan yerdə problemlər də ola bilər. Əgər dövlətə təhlükə yaratmırsa, cəmiyyətin mənafelərini tapdalamırsa, onları bağışlamaq, üzərindən keçmək, güzəşt etmək olar və bəzi məqamlarda dövlət başçısı bunu da edib. Prezident İlham Əliyevin 22 illik Prezidentlik fəaliyyətinə əsasən demək olar ki, Onun üçün əsas prinsip dövlətə, dövlətçiliyə sədaqətlə xidmət, siyasi irsə hörmət göstərməkdir. Təəssüflər olsun ki, bu prinsiplərə əməl etməyən, xəyanət yolu tutan keçmiş vəzifə mənsubları var. Hansı ki, onlara zamanında etimad göstərilib, siyasi hakimiyyətdə komanda üzvü olmalarına şərait yaradılıb. Vəzifədən getdikdən sonra isə siyasi irsə xəyanət yolu tuturlar.

Bunların arasında dövlətə külli miqdarda ziyan vuran, onun siyasi və iqtisadi əsaslarına təhdid yaradan, müxtəlif dövlət çevrilişi ssenarilərində yer alan nankor və xəyanətkar məmurlar, siyasətçilər olub. Azərbaycan siyasi hakimiyyəti və xüsusi xidmət orqanları son 22 ildə bir neçə dəfə dövlət çevrilişinə cəhdi, hakimiyyətin zorla ələ keçirilməsi üçün hazırlanmış planları ifşa ediblər. Müxtəlif vaxtlarda bütün siyasi taleyi üçün Ulu Öndərə və Prezident İlham Əliyevə minnətdar olmalı olan bəzi məmurların özgə qapılarından ümid dilənməyinin şahidi olmuşuq. Məsələn, Baş nazirin sabiq birinci müavini Abbas Abbasov bu siyahının "parlaq" nümayəndələrindən hesab oluna bilər. O da eynilə, 2006-cı ildə vəzifəsindən azad edildi və "İstiqlal" ordeni ilə təltif edilərək, hörmətlə yola salındı. Düşünmək olardı ki, bundan sonra o, akademik fəaliyyətlə, bizneslə məşğul ola, yaxud ailə mühitində nəvə-nəticələrinə babalıq edə bilər. Amma Abbas Abbasov hakimiyyət eşqinə düşdü və başqa paytaxtlarda nicat axtarmağa başladı.

## Abbas Abbasovu peşka rolunda çıxış etməyə nə vadar edib?

2013-cü ildə Azərbaycanda dövlət çevrilişinə cəhd planlarını xatırlamaq yerinə düşər. Həmin vaxt Rusiyada "Milyarderlər ittifaqı" quruldu, azərbaycanlı iş adamları bu ittifaqa cəlb edildi, onların Azərbaycanın siyasi müxalifəti ilə əlaqələri formalaşdırıldı. Bu prosesdən bir qədər əvvəl "Ziyalılar Forumu" yaradılsa da, az sonra orada toplaşan ziyalılardan bəziləri məsələnin mahiyyətini anladılar. Məqsədini "cəmiyyətin problemlərinin müzakirəsi" elan edən Ziyalılar Forumunun bəzi üzvlərinin siyasi bəyanatlar səsləndirməsi digərlərinin bu klubdan uzaqlaşmasına səbəb oldu. Bunun ardınca isə həmin "ziyalılardan" bir qisminin və radikal müxalifətin toplaşdığı "Milli Şura" adlı rusiyapərəst birlik formalaşdı. Prezident seçkilərindən sonra bu şuranın Rusiya prezidentinə məktubu da mediada yayıldı.

Bütün bu prosesdə Rüstəm İbrahimbəyov irəli verilib, "Milli Şura"nın vahid namizədi elan olunsa da, hamıya aydın idi ki, dirijorun solo çıxış üçün müəyyənləşdirdiyi şəxs məhz Abbas Abbasovdur. Abbas Abbasov həmin vaxt neinki Azərbaycanın daxilindəki köhnə tanışlarından istifadə edir, Rusiyada onunla eyni siyasi mövqedən çıxış etməyən diplomatlara, iş adamlarına və diaspora üzvlərinə qarşı repressiv cəzalar tətbiq etdirirdi. Yeri gəlmişkən, həmin vaxt xaricdə çalışan bəzi diplomatlarımız Abbas Abbasovun Rusiya bazarlarına qədər gedib, oradakı azərbaycanlıları belə bu prosesə qoşmaq istəməsi barədə açıqlamalar verirdilər. Bu açıqlamalardan sonra Ramiz Mehdiyev onların media çıxışlarına qadağa tətbiq etmişdi, Elmar Məmmədyarov isə diplomatları XİN sistemindən uzaqlaşdırmışdı.

## Avantüra alınmadı

Həmin dövrdə bu planlar baş tutmadı, xalqımız şimaldan əsən avantüra küləyinə aldanmadı, siyasi dəllallara dəstək vermədi. Seçkilərdə xalq öz sözünü dedi və Ulu Öndər Heydər Əliyevin siyasətinin davam etdirilməsinə səs verdi. Bundan sonra Abbas Abbasov müəyyən dövr itdi, efirdə görünmədi. Sonra aydın oldu ki, o, milyarder Telman İsmayılovun yanında işə düzəlib. İşinin mahiyyəti isə İsmayılovun qonaqlarını qarşılamaq və yola salmaq idi, bu isə vəzifə deyil, birbaşa lakeylik idi, Telman İsmayılovun yavəri olmaq demək idi. Yəni Azərbaycan kimi böyük, qüdrətli dövlətin Baş nazirinin birinci müavini olmuş şəxs, özünü alçaldılmış vəziyyətə saldı. Niyə, səbəb nədir? Təbii ki, peşkalıq etməyinin təməlində müəyyən şəxslər vasitəsi ilə Rusiya hakimiyyət orqanlarından siyasi dəstək almaq istəyi dayanıb. Lakin istəyi baş tutmadı. Az sonra Telman İsmayılov da ondan imtina etdi və nəticədə ortada qaldı. Bu isə ona vurulan ən böyük zərbə idi. Çünki ortada qalmaq çox pis bir şeydir. Rüsvayçı vəziyyətə düşməsinə görə də utandığından Azərbaycana gələ bilmir. Hətta erməniəsilli qayınanası ölən zaman Gəncədə onu fitə basa biləcəklərindən ehtiyat etdiyi üçün dəfnə gələ bilmədi.

## "Bir dəfə satan həmişə satar!"

Belə naqislik edən, xəyanət yolu tutanların siyahısını bir qədər də genişləndirmək olar. Uzağa getmədən onlardan biri də Ramiz Mehdiyev olduğunu söyləmək mümkündür. Daha doğrusu, hazırda yaşananlar onu təsdiq edir ki, dövlətə xəyanət edən, siyasi irsinə dönük çıxan əsas satqınların önündə elə Ramiz Mehdiyev dayanır. Sirr deyil və Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, Mehdiyev və onun yaxın ətrafının fəaliyyəti Azərbaycana çox ziyan vurub. Bütün siyasi karyerasını, siyasi varlığını Ulu Öndər Heydər Əliyevə borclu olan bu bürokrat hələ 1980-ci illərdə Ulu Öndərin Azərbaycandan Moskvaya getməsini və orada ermənilərin Azərbaycan üçün yaratdığı problemlərlə mübarizə aparmasını fürsət bilərək, ona yaxınlığı, sədaqəti ilə seçilən şəxsləri Bakıdan uzaqlaşdırıb əyalətlərə göndərirdi. Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra fuşesayağı riyakar üzünü geyinən Mehdiyev yenə yazıq görkəmdə onun qarşısında dayanıb, məzlum-məzlum əfv dilədi. Amma "bir dəfə satan həmişə satar!"

Məlum faktdır ki, hələ Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyəti dövründə bir sıra KİV-lər Ramiz Mehdiyevin satqın və xəyanət yolu tutan şəxs olduğunu mövcud faktlarla qeyd edirdi. Yazılırdı ki, o, bir sıra şəxsləri ətrafına yığaraq, hakimiyyət sevdası barədə müzakirə aparır. Həmin vaxt Ramiz Mehdiyev ona biət edənlərin bir qismini qurban verərək, sudan quru çıxa bildi. Ramiz Mehdiyev əlinə düşən hər fürsətdə hakimiyyət daxilində gücünü göstərmək, ona biət etməyənlərə qarşı şər torbası toxumaq şakərindən heç vaxt vaz keçmədi.

Ətrafına yığdığı deputatlar, elm adamları vasitəsilə özünü "ideoloq", "siyasətçi", "dövlət adamı", "filosof" kimi təqdim etməyə çalışsa da, Ramiz Mehdiyev heç vaxt buna nail ola bilmədi. O, sadəcə icraçı, bürokrat, kitablarını 3-5 alimə yazdıran kopyabaz, Makiavellidən əzbərlədiyi 3-4 cümlə ilə göz boyamağa çalışan diletant, Rusiyadan gələn zənglərlə özünü xoşbəxt hiss edən emissar idi. Ramiz Mehdiyev həmişə kiçik intriqalardan, tələlərdən, dedi-qodudan, şantajdan və böhtandan istifadə edən məmur olub. O özünün və şəbəkəsinin lazımlılığını göstərmək üçün daim radikal siyasi müxalifəti ayaqda saxlamağa çalışıb, Ulu Öndər və Prezident İlham Əliyev haqqında müxalifət mətbuatında iyrənc yazılar sifariş edib. Ramiz Mehdiyev müxalifətin 2003-cü ildən sonra dağılmış parçalarını zorla bir yerə toplayaraq, varlığına şərait yaradıb. Ramiz Mehdiyev özünün nəzarətində olan bu müxalifətçilərdən zaman-zaman "deputat", media rəhbəri, QHT sədri hazırlamaqla, "iş görən", müxalifəti zərərsizləşdirən" məmur obrazı formalaşdırıb.

Mövcud faktlara istinadən qeyd etmək olar ki, 2017-2018-ci illərdə isə Ramiz Mehdiyevin oyunları müntəzəm xarakter almağa başladı. Qarşıda böyük hədəf-Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və suverenliyin bərpası prosesi var idi. Bu prosesi indiyə qədər dözüm göstərilən rusiyapərəstlərlə görmək mümkün deyildi. Ancaq bu dəfə onun hiyləgər və naqis fəaliyyəti nəticə vermədi. Nəhayət, Prezident İlham Əliyev öz xarakterinə və siyasi prinsiplərinə sadiq qalaraq, Ramiz Mehdiyevi 2019-cu ildə hörmətlə Prezident Administrasiyasının rəhbəri vəzifəsindən yola saldı. Prezident Administrasiyasının rəhbəri olduğu dövrdə yaratdığı bütün problemlərə və etdiyi naqisliyə baxmayaraq, ona qoca yaşında bir daha şans verildi və AMEA Prezidenti vəzifəsi həvalə olundu. Ulu Öndərə Heydər Əliyev komandasında mühüm postlardan birini tutduğu nəzərə alındı və düşünüldü ki, ahıl yaşında ömrünün sonunu rahat yaşayar.

Lakin bu dəfə də xislətinə uyun fəaliyyət yolu tutdu. Fəaliyyəti ilə elm ocağını rüşvət və intriqa yuvasına çevirdi. Ramiz Mehdiyev 2019-cu ildə AMEA-a gələndə Prezident Administrasiyasındakı köməkçilərindən olan Eldar Əmirovu da (Ramiz Mehdiyevin bəzi əsərlərinin, məqalələrinin müəllifi olduğu deyilir) AMEA-ya apardı. Onu, AMEA Prezidentinin Katibliyinin rəisi təyin etdi. Halbuki, AMEA Nizamnaməsində belə struktur nəzərdə tutulmamışdı. Ramiz Mehdiyev dərhal özü üçün belə bir "katiblik" yaratdı və AMEA-da siyasi fəaliyyətə başlayıb, qurumun saytını siyasi bəyanatların yayıldığı mənbəyə çevirdi.

### Satqınlar bir şeyi unudublar...

Təbii ki, R.Mehdiyevin AMEA-da qurduğu rüsvayçı durum uzun müddət davam edə bilməzdi. Belə də oldu. Bütün AMEA institutları onun istefasını tələb etdilər və o, 2022-ci ildə AMEA prezidentliyindən istefa verməli oldu. Ramiz Mehdiyev vəzifəsindən uzaqlaşdırılsa da, AMEA-dan uzaqlaşmırdı. 2022-ci il fevralın 22-də AMEA-nın Ümumi Yığıncağında istefası qəbul edilən Ramiz Mehdiyevin martın 17-də Akademiyada olduğu haqda məlumat yayıldı. AMEA-dan verilən açıqlamada onun binaya şəxsi əşyalarını götürmək üçün gəldiyi bildirilmişdi. Ancaq sonra məlum oldu ki, Ramiz Mehdiyev Akademiyada, məhz Akademiya Prezidentinin otağında Rusiyadan gələn nümayəndələrlə - Rusiya Elmlər Akademiyasının prezidentinin köməkçisi ilə görüş keçirib. Heç bir rəsmi statusu olmadan R.Mehdiyev Rusiyadan gələn xüsusi xidmət orqanlarının elçiləri ilə nəyi müzakirə edib? Söz yox ki, şifrəli söhbətlər aparılıb, təlimatlar bir daha dəqiqləşdirilib. Sonradan onun Novxanıdakı bağ evi də "komanda " üzvlərinin iştirakli ilə görüşlərin keçirildiyi əsas məkan olub. Bu görüşlərdə əsas məkrli məqsəd ölkəmizdə sabitliyi pozmaq və dövlət çevrilişi həyata keçirmək idi. Hətta satqın və xəyanət yolu tutan qrupun üzvləri ilə dövlət çevrilişindən sonra hakimiyyət bölgüsünü də müzakirə edib, qərar qəbul etmişdilər. Hesab olunmuşdur ki, dövlət çevrilişindən sonra Dövlət Şurası yaradılacaq və o, şuranın sədri olacaq. Bu cür separatçı müzakirələr və razılaşmaların əldə olunması erməni dəyirmanına su tökməkdir. Həm də Ermənistanla gözlənilən sülh müqaviləsinin imzalanması ərəfəsində belə bir məkrli planın hazırlanması onu təsdiq edir ki, Rusiya xüsusi xidmət orqanları R.Mehdiyevə ciddi şəkildə təlimat verib. O da qrupunun üzvləri ilə planın yerinə yetirilməsi üçün hazırlıqlara başlayıb. Lakin onu nəzərdən qaçırmışdılar ki, artıq Azərbaycan ötən əsrin 90-cı illərindəki Azərbaycan deyil. Qısa müddətdə R.Mehdiyev və qrupunun üzvləri hüquq-mühafizə orqanları tərəfindən ifşa olundular.

Unutmaq olmaz ki, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyev siyasətinə sadiqdir, həm də Prezident İlham Əliyevin fəaliyyətindən, apardığı daxili və xarici siyasətindən razıdır, sıx şəkildə Prezidentimizin ətrafında birləşiblər. Ona görə də, Ramiz Mehdiyev, Abbas Abbasov və digərlərinin Azərbaycanla bağlı xəyalları puç olacaq, arzuları ürəklərində qalacaq.

***İLHAM ƏLİYEV***

# “Ramiz Mehdiyev dövlətə xəyanətin simvoluna çevrilib”

***"Bu gün gündəmdə olan 25 il Prezident Administrasiyasına rəhbərlik etmiş Ramiz Mehdiyevin dövlətə xəyanət, hakimiyyəti zorla ələ keçirmə və çirkli pulların yuyulması ittihamları ilə üzləşməsi faktı təsadüfi deyil. Bu, illərlə sistem içində kök salmış, dövlətin etimadını şəxsi maraqlara qurban vermiş, köhnə siyasi təfəkkürün ifşasıdır". Bu fikirləri SİA-ya açıqlamasında SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib. Bəhruz Quliyev əlavə edib ki, bu gün Ramiz Mehdiyev artıq təkcə bir şəxs deyil keçmişin, intriqa və ikili oyunlar dövrünün rəmzidir. Dövlətin gücü və prinsipiallığı elə ondadır ki, kimliyindən asılı olmayaraq, xəyanət edənlərin hamısı cavab verir: "Azərbaycan dövləti bir daha göstərdi ki, burada "toxunulmaz" anlayışı yoxdur. Dövlətə, xalqa və Prezidentə qarşı gedən, illərlə "kölgə oyunları" oynayan hər kəs hüquq qarşısında cavab verəcək".***

Ramiz Mehdiyevin Yeni Azərbaycan Partiyasının sıralarından çıxarılması məsələsinə gəldikdə isə siyasi ekspert bildirib ki, aparılan proses nizamnaməyə tam uyğundur: "Çünki bu partiya xalqın iradəsini, dövlətçilik prinsiplərini və



Prezident İlham Əliyevin siyasi kursunu təmsil edir. Dövlətə xəyanət edən şəxsin YAP sıralarında qalması nə mənəvi, nə də siyasi baxımdan mümkündür. Əgər bu gün partiyada onunla əlaqəsi, gizli münasibəti, "səssiz həmfikirləri" olanlar varsa, onlar da eyni aqibəti yaşamalıdırlar. Bu məsələ sadəcə bir cinayət işi deyil, siyasi və mənəvi təmizlənmə prosesidir. Ramiz Mehdiyevin illərlə yaratdığı kölgə şəbəkəsinin dağılması, dövlətin gücünü, Prezidentin iradəsini və xalqın ədalət tələbini nümayiş etdirir".

Media Qrupunun rəhbəri əlavə edib ki, Azərbaycan artıq yeni mərhələdədir, yeni burada nə "köhnə komanda", nə "immunitet", nə də "kölgədə hökmranlıq" anlayışı mövcuddur. Bu ölkədə yalnız dövlətə sadiqlik, xalqa xidmət və şəffaf siyasət mövcuddur. Qalan hər kəs, istər Ramiz Mehdiyev, istərsə də onun "köhnə oyunçuları" tarix səhnəsindən silinməyə məhkumdur.



Mətanət Məmmədova

# Jurnalist olmaq...

***Vaxtilə jurnalist deyəndə ağıla da, göz önünə də ilk gələn qələm idi. Sonralar yazı makinaları, kompüter ixtira olunsa da, bu dəfə də jurnalistin barmaqları qələminə çevrildi. Gördükləri, həyatda müşahidə etdikləri, baş verən hadisələr onu zaman-zaman böyük bir ordunun əsgərinə çevirdi, sadəcə əlində silah deyil, qələmi olan əsgərə... O qələm bəzən silah qədər kəskindir, hədəfə onun qədər dəqiq vurur. Kimlərinsə səhvinə, kimlərinsə yanlışına, kimlərinsə köhnə kənddə yeni dəbinə, haramına, xəyanətinə, pis mövqeyinə, nəfsinə tuşlanır. Vurur hədəfə, dağıdır, parçalayır. Milli dəyərləri yaşatmaq uğrunda mübarizə aparır. Ailə dəyərlərini qorumaq üçün mübarizəyə qalxır. Cəmiyyətin, dövlətçiliyin qorunması üçün mübarizə meydanına çıxır o qələm.***

Bəzən qələm ana sığalına çevrilir. Ətrafdakı gözəllikləri tərənnüm edir. Gözəl ənənələri bəzəyir. Uğurları al-əlvan güllərə qərq edir. Yol göstərir, məsləhət verir, tövsiyə edir.

Bəzənsə əsrlərin o başından bu başınadək yola çıxır qələm. Xatırlayır olanları-keçənləri. Həyatda izi, sözü, əməli qalanları anır. Onları o əsrdən bu əsrə qonaq gətirir. Yenidən dünyaya bəxş edir. Onlardan bəhs edir. Yubileyini, doğum gününü, anım tarixini qeyd edir. Yaşadır qələmlər minlərlə insanı: öz dəyərləri, zəhməti, yaddaşlara saldığı izlərlə...

Qələm deyəndə tək kağız üzərinə mürəkkəb salan bir əşya düşünməyin. Qələm həm də canlıdır: müəllimdir-yol göstərir, tərbiyə edir. Həkimdir-müalicə edir, sağlamlığa çağırır. Əsgərdir-döyüşür, düşmənlə mübarizə aparır. Torpaq uğrunda mücadilə edir, şəhid verir, Qələbə qazanır. Sonra da bu qələbəni tarixin bu başından o başına götürür: salnamələşdirir, tarixləşdirir.

Qələm hüquq mühafizəçisidir-hüquqlardan bəhs edir, bilməyənə hüquqlarını izah edir, polisdir-asayişi qoruyur, sərhədçidir-ərazi bütövlüyü uğrunda qələmdən süngərə çevrilir.

Qələm mühəndisdir-tikir, ucaldır, qurur-yaradır. Sonra da kənardan tamaşasına dayanır. Vəsf edir, gözəlliyi gözləri ilə görməyi, qiymət verməyi bacarır...

Qələm ata-anadır, bir evin böyüyü-ağsaqqalı-ağbirçəyidir. Ənənələri qorumağı tövsiyə edir, yol gözləməyə, keçmişdən bu günə yaşananları yaşatmağa çağırır. Böyüyün-kiçiyin yerini göstərir. Doğru davranışı təbliğ edir.

Qələmi əsla cansız bir əşya hesab etməyək. O, canlıdır, həyat doludur... Onu əlinə alan isə həyata tamamilə fərqli baxışla baxanlardır. Qəlbindən, ruhundan axanları qələmin yazmasına hökm verənlərdir. Bir baxışla bəlkə də yüzlərlə insanın görmədiyini görənlər, sezmədiyini sezənlərdir jurnalistlər. Odur ki, çox həssasdırlar. Bu həssaslıq bəzən ömrü yarıda qoyur. Bu peşə bəzən həyatı tam yarıda nöqtələyir.

Çətindir, lakin şəreflidir. Onu yarıda qoyub qaçanlar da olur. Çətinliyinə tab gətirməyənlər də olur. Lakin tab gətirib peşəsi ilə qürur duyanlar çoxdur. Seçilib bu peşədə qalanlar, onun ağırlığını çiyinlərində daşıyanlar çoxdur. Bu, bütün dünyada belədir. Bax budur, jurnalist olmaq... 21 oktyabr Dünya Jurnalistlər Günüdür. Odur ki, bayramı mübarək, bu peşədə qalanların, çətinliklərə sinə gərənlərin-jurnalist olanların. Qoy qələmimiz iti, sözümüz kəsərli olsun.



ilə təsdiq edilmiş, 2019-cu il 18 iyul tarixli 26/12 nömrəli qərarla isə ona müvafiq dəyişikliklər edilmişdir. Adıçəkilən rəsmi statistika hesabatı hər il yanvar ayının 25-dək təqdim olunur və tabeliyindən asılı olmayaraq bütün milli parklar, dövlət təbiət qoruqları və geoloji parklar tərəfindən yerləşdikləri ərazinin statistika orqanına, yasaqlıqlar üzrə isə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Dövlət Statistika Komitəsinə təqdim edilir.

Son statistik məlumatlar göstərir ki, Azərbaycan Respublikasında xüsusi mühafizə olunan ərazilərin sahəsi son 34 ildə əhəmiyyətli dərəcədə artmışdır. Azərbaycan Respublikasında 1990-2024-cü illər ərzində xüsusi mühafizə olunan ərazilərin sahəsində əhəmiyyətli dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, milli parklar 2003-cü ildə 845,1 km² olmuş, 2024-cü ildə 4213,7 km²-ə çataraq təxminən 5,0 dəfə artmışdır. Dövlət təbiət qoruqları 1990-cı ildə 1867 km² olduğu halda, 2024-cü ildə 1207,2 km²-ə düşərək təxminən 35,3% azalmışdır. Dövlət təbiət yasaqlıqlarının sahəsi isə 1990-cı ildə 1957,8 km² olduğu halda, 2024-cü ilin sonuna qədər 79,2% artaraq 3507,7 km²-ə çatmışdır. Nəticədə, xüsusi mühafizə olunan ərazilərin ümumi sahəsi 1990-cı ildə 3824,8 km² təşkil etdiyi halda, 2024-cü ilin sonuna qədər təxminən 2,3 dəfə çoxalaraq 8928,6 km²-ə çatmışdır.

Azərbaycan Respublikasında milli parkların yaradılması ilə bağlı ilk təşəbbüs Akademik Həsən Əliyev tərəfindən irəli sürülmüşdür. Ölkəmizdə ilk milli parklar 2003-cü ildə yaradılmışdır. Daha sonrakı dövrdə bu ənənə davam etdirilmiş və nəhayət, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 iyul 2025-ci il tarixli Sərəncamı ilə ölkəmizdə daha iki yeni milli park – Axar-Baxar və İlisu milli parkları yaradılmışdır. Bu qərar Azərbaycanda, eləcə də Cənubi Qafqaz regionunda xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, ekoturizmin inkişafı, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyası, ətraf mühitin dayanıqlı idarə olunması və bütövlükdə regionun bioloji müxtəlifliyinin qorunması baxımından mühüm və tarixi hadisə kimi qiymətləndirilir. Azərbaycanın yeni yaradılmış unikal təbiət komplekslərindən biri olan Axar-Baxar Milli Parkı Samux, Yevlax və Qax rayonlarının əsasən dövlət ehtiyat fondu torpaqlarında formalaşdırılıb və ümumilikdə 23901,99 hektar ərazini əhatə edir. İlisu Milli Parkı isə fəaliyyətdə olan İlisu Dövlət Təbiət Qoruğunun bazasında yaradılıb. Milli Park Qax və Zaqatala rayonlarının ərazisində yerləşir və ümumi sahəsi 13966,0 hektardır. Yeni yaranan milli parklar hesabına hazırda Azərbaycanda ümumi sahəsi 913342,2 hektara qədər olan xüsusi mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir ki, bunlara 12 milli park, 9 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı daxildir. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,5%-ni, ayrı-ayrılıqda isə milli parklar 5,3%-ni, dövlət təbiət qoruqları 1,2%-ni, dövlət təbiət yasaqlıqları isə 4,1%-ni təşkil edir.

# Azərbaycan Respublikasının xüsusi qorunan əraziləri

***Azərbaycan Respublikası "Ümumdünya Statistika Günü"nün qeyd olunmasına xüsusi önəm verərək BMT-nin Baş Assambleyasının qəbul etdiyi qətnaməyə həm-müəllif kimi qoşulmuşdur. 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş BMT-nin St,atistika Komissiyasının 56-cı sessiyasında Ümumdünya statistika günü ilə bağlı BMT Baş katibinin məruzəsi təqdim olunaraq bu əlamətdar günün beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır. Bu günün qeyd olunmasında əsas məqsəd məlumata olan tələbatın hər gün artdığı müasir dövrdə statistikanın rolunu və əhəmiyyətini bütün rəsmi statistika istehsalçılarına, statistik məlumat istifadəçilərinə və xüsusilə vətəndaş cəmiyyətlərinə çatdırmaqdan ibarətdir.***

Ölkəmizdə Ümumdünya Statistika Gününün qeyd olunması ilə bağlı həyata keçirilmiş bir sıra tədbirlər, o cümlədən cari ilin 24-26 sentyabr tarixlərində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 73-cü iclasının keçirilməsi və Ölkə Prezidenti cənab İlham Əliyevin Statistika Forumunun iştirakçılarına müraciəti ölkəmizdə statistika sahəsinə ən yüksək səviyyədə dəstəyin bariz nümunəsidir.

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri ölkənin bioloji müxtəlifliyinin qorunması, ekosistemlərin tarazlığının saxlanılması və təbii sərvətlərin səmərəli istifadəsi baxımından mühüm əhəmiyyət kəsb edir. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 62-ci maddəsinə əsasən, xüsusi mühafizə olunan təbiət əraziləri ətraf mühitin mühafizəsi sahəsində xüsusi ekoloji elmi, mədəni, estetik əhəmiyyətə malik olan təbiət kompleksləri və obyektləridir. Bu ərazilər nadir və nəsli kəsilmək təhlükəsi altında olan fauna və flora növlərinin yayıldığı yerləri əhatə edir və təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılmış torpaq və su məkanlarını (akvatoriya), həmçinin onların üzərindəki atmosfer məkanını əhatə edir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, qorunması və idarə olunması "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu Qanun Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, idarə olunması və mühafizəsi, eləcə də xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunması sahəsində hüquqi əsasları müəyyən edir.

Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət əraziləri məqsəd, mühafizə rejimi və istifadənin xüsusiyyətlərinə görə müxtəlif növlərə ayrılır. Bunlara dövlət təbiət qoruqları (o cümlədən biosfer qoruqları), milli parklar, müxtəlif tipli parklar- təbiət, ekoloji və geoloji parklar, dövlət təbiət yasaqlıqları, təbiət abidələri, zooloji parklar, nəbatat bağları və dendroloji parklar, həmçinin müalicə-sağlamlaşdırma yerləri və kurortlar daxildir.

Milli parklar ekoloji, tarixi və estetik əhəmiyyətə malik təbiət komplekslərinin əhatə edən, təbiətin qorunması, elmi tədqiqat və maarifçilik məqsədilə istifadə olunan, elmi müəssisə və ya təşkilat statusuna malik ərazilərdir.

Dövlət təbiət qoruqları səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətində qoruyub saxlamaq və təbiət proseslərini öyrənmək məqsədilə yaradılmış ərazilərdir.

Geoloji parklar xüsusi geoloji, coğrafi və tarixi əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi, ekoloji, elmi, turizm və maarifçilik məqsədləri üçün istifadə olunan, respublika əhəmiyyətli xüsusi mühafizə olunan ərazilərdir. Bu ərazilər torpaq, su, bitki və heyvan aləminin qorunmasını təmin edir.

Dövlət təbiət yasaqlıqları isə təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və bərpası üçün xüsusi əhəmiyyət daşıyan və burada təbiətə zərər vura biləcək fəaliyyətin qadağan olunduğu ərazilərdir.

Azərbaycanın florası Cənubi Qafqaz regionu üzrə ən zəngin ölkələrdən biridir və burada rast gəlinən bitki növləri regional floranın təxminən 66%-ni təşkil edir. Ölkədə 4500 ali bitki növü yayılmışdır ki, bunlardan da 240 növü yalnız Azərbaycana xas endemik növdür (ümumi floranın 6%-i), 920 növü isə Qafqaz üçün endemik sayılır. Endemik bitkilər məhdud areala malik olub, yalnız müəyyən ekoloji şəraitə uyğunlaşmış ərazilərdə yayılır və bir çoxu nəsli kəsilməkdə olan nadir növ kimi Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir.

Xüsusi mühafizə olunan ərazilər üzrə rəsmi statistik məlumatların toplanması və təhlili "Milli parklar, dövlət təbiət qoruqları, geoloji parklar və yasaqlıqlar haqqında" 1-qoruq №-li illik rəsmi statistika hesabatı əsasında həyata keçirilir. Hesabat forması Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 13 may tarixli 52/11 nömrəli qərarı

## Azərbaycan Respublikasının milli parklarının siyahısı

**Adı Yerləşdiyi ərazi Yarandığı il Ümumi sahəsi, hektar "Qırmızı Kitaba" daxil olmuş növlər**

Abşeron Milli Parkı Bakı, Xəzər rayonu 2005 783 Xəzər suitisi, ceyran, sultan quşu, ağgöz dalğıc,, fısıldayan qu quşu, adi qızılqaz, kürən vağ, qıvrımlələk qutan və s.

Ağ göl Milli Parkı Ağcabədi və Beyləqan rayonları 2003 17924 Qamışlıq pişiyi, ceyran, ağqaş qaz, adi göydimdik, mərməri ördək

Göygöl Milli Parkı Daşkəsən, Goranboy və Göygöl rayonları 2008 12755 Qafqaz maralı.

Şahdağ Milli Parkı İsmayıllı, Qəbələ, Quba, Qusar, Oğuz

və Şamaxı rayonları 2006 130508 Qonur ayı, nəcib maral, Avropa cüyürü,Qafqaz köpgəri, vaşaq, bərqud qartal, imperator qartalı, Qafqaz tetrası, Qafqaz uları və s.

Altıağac Milli Parkı Xızı və Siyəzən rayonları 2004 11035 Qonur ayı, vaşaq, Avropa cüyürü, saqqallı quzugötürən, qara çalağan, kəskiniyli ardıc, Qafqaz bənövşəsi, itikənarlı süsən və s.

Ardı Səh. 11

## Əvvəli-Səh-10

Hirkan Milli Parkı Lənkəran və Astara rayonları 2004 40358 Hirkan şümşəsi, Hirkan qovağı, Lənkəran gülxətmisi, giləmeyvəli qaraçöhrə, Talış uzunbığı, qara leylək, cırtdan qartal, tirəndaz, Ön Asiya bəbiri, qonur ayı, vaşaq, zolaqlı kaftar və s.

Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı Ordubad rayonu 2003 42797 Bəbir, zolaqlı kaftar, manul pişiyi, dağ qoyunu (muflon), bezoar keçisi, toğlugötürən, Xəzər uları, ağboğaz bülbül, qırmızıqanad mərciməkqușu və s.

Şirvan Milli Parkı Qaradağ, Salyan və Neftçala rayonları 2003 54374 Ceyran, qamışlıq pişiyi, adi qızılqaz, bəzgək və s.

Samur-Yalama Milli Parkı Xaçmaz rayonu 2012 11772 Qamışlıq pişiyi, vaşaq, Qafqaz maralı, Qafqaz köpkəri, Avropa cüyürü, böyük qırğı, imperator qartalı, çöl muymulu, fısıldayan qu quşu, dəniz sıfı, Eldar şamı və s.

Qızılağac Milli Parkı Lənkəran, Masallı və Neftçala rayonları 2018 99060 Qamışlıq pişiyi, adi qızılqaz, ağqaş qaz, adi göydimdik, mərməri ördək, adi bəzgək, çöl leyi və s.

İlisu Milli Parkı Qax və Zaqatala rayonları 2025 13966 Giləmeyvəli qaraçöhrə, Satirvari steveniella, Avropa vaşaqı, Avropa cüyürü Qafqaz köpgəri, Qafqaz tetrası, Qafqaz uları, bərqud, Saqqallı kərkəs

Axar-Baxar Milli Parkı Qax, Samux və Yevlax rayonları 2025 23902 Ağırıyli ardıc, saqqızağacı, Eldar armudu, Qafqaz xarıbülbülü, Nöqtəli səhləb, Şoranyer qarğasoğanı, Gürcü süsəni, bəbir, Avropa vaşaqı, Çöl pişiyi, Zolaqlı kaftar, Çay samuru, safsar, ceyran, İmperator qartalı, Qara kərkəs, Ağbaş kərkəs, İlanyeyən qartal, Çay qaraquşu, Ağquyruq dəniz qartalı, Qara leylək, Çöl qartalı.

Azərbaycanda təsis edilmiş ilk dövlət təbiət qoruqları 1929-cu ildə Qızılağac və Zaqatala qoruqları, 1936-cı ildə isə Hirkan qoruğu olmuşdur. 1958-ci ildən başlayaraq qoruqların yaradılması prosesi davam etdirilmişdir. 2004-cü ildə Eldar Şamı, 2007-ci ildə Bakı və Abşeron yarımadasının Palçıq Vulkanları Qrupu, 2008-ci ildə isə Korçay Dövlət Təbiət Qoruğunun əsası qoyulmuşdur. Eyni zamanda 2003-cü ildə Türyançay və Qarayazı, 2008-ci ildə isə Zaqatala dövlət təbiət qoruqlarının əraziləri 2-3 dəfədən çox genişləndirilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, 30 ilə yaxın müddət ərzində erməni təcavüzkarlarının işğalı altında olan Bəsitçay Dövlət Təbiət Qoruğu və Qaragöl ətrafı tarixən Azərbaycan torpağı olmuş və hazırda tamamilə işğaldan azad edilmişdir. İşğaldan azad edildikdən sonra qoruqların mövcud vəziyyətinin qiymətləndirilməsi məqsədilə əraziyə ezam olunmuş monitorinq qrupunun verdiyi məlumatlara əsasən, Bəsitçay Dövlət Təbiət Qoruğu 107 hektarı əhatə etmişdir. Hazırda 85 hektar meşə ilə örtülü sahənin 42 hektardan çox hissəsi tamamilə məhv edilmişdir. Çox yaşlı və qiymətli Şərq çinarı ağacları kəsilmiş, köklərinin məhvi üçün müxtəlif partlayıcı maddələrdən istifadə edilmiş, ərazidə yanğınlar törədilmiş və qoruğun inzibati binası dağıdılmışdır. Təbiətə qarşı olan bu vandalizmin izlərini aradan qaldırmaq məqsədilə Prezident 2021-ci il oktyabrın 20-də "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qoruq ərazisində yerləşən təbiət obyektlərinin inventarlaşdırılmasını aparmış və həm yerli, həm də xarici mütəxəssisləri cəlb etməklə ekoloji vəziyyətin qiymətləndirilməsi həyata keçirilmişdir. Nəticədə, ötən iki ildə 107 hektar sahədə Bəsitçay dövlət təbiət qoruğunun fəaliyyəti xeyli bərpa olunub, həmin ərazilərdə təbii ekosistem, bioloji müxtəliflik, habelə nadir və itməkdə olan bitki növləri sağlamlaşdırılmışdır.

### Azərbaycan Respublikasının dövlət təbiət qoruqlarının siyahısı

**Adı Yerləşdiyi ərazi Yarandığı il Ümumi sahəsi, hektar "Qırmızı Kitaba" daxil olmuş növlər**

Türyançay Ağdaş, Oğuz, Yevlax və Qəbələ rayonları 1958 22488 Şahin qızılquş, bərqud, çöl qartalı

Qarayazı Ağstafa rayonu 1978 9658

Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Bakı şəhəri və Abşeron rayonu 2007 12323

Korçay Goranboy rayonu 2008 4834 Ceyran, turac

Qaragöl Laçın rayonu 1987 240

Şirvan Salyan və Neftçala rayonları 1969 4657 Çəhrayı qutan, qara leylək, bəzgək, dovdaq, soltan toyuğu, ərsindimdik, qızılqaz, qırmızıdöş qaz, fısıldayan qu, kiçik qu

Eldar şamı Samux rayonu 2004 1686 Eldar şamı

Zaqatala Zaqatala və Balakən rayonları 1929 47349

Bəsitçay Zəngilan rayonu 1974 107 Şərq çinarı

Azərbaycanda ilk yasaqlıq 1961-ci ildə yaradılmışdır. 1993-cü ilə qədər yasaqlıqların yaradılması prosesi davam etdirilmişdir. 2003-cü ildə yenidən yasaqlıqların yaradılmasına başlanılmış və həmin ildə Qax, 2005-ci ildə isə Arazboyu və Hirkan, 2008-ci ildə Zaqatala, 2009-cu ildə isə Arpaçay və Rvarud dövlət təbiət yasaqlıqları yaradılmışdır.

Azərbaycan Respublikasının dövlət təbiət yasaqlıqları ölkənin fərqli coğrafi bölgələrində yerləşir: Laçın Yasaqlığı Laçın rayonunda, Korçay Yasaqlığı Goranboy rayonunda, Bəndovan Yasaqlığı Salyan və Qaradağ rayonlarında, Şəki Yasaqlığı Şəki rayonunda, Qusar Yasaqlığı Qusar rayonunda, Şəmkir Yasaqlığı Şəmkir rayonunda, Gil adası Yasaqlığı Bakı, Qaradağ rayonunda, Qarayazı Yasaqlığı Ağstafa rayonunda, Bərdə Yasaqlığı Bərdə və Ağdam rayonlarında, Zuvand Yasaqlığı Lerik və Yardımlı rayonlarında, Ordubad Yasaqlığı Ordubad rayonunda, İsmayıllı Yasaqlığı İsmayıllı rayonunda, Qubadlı Yasaqlığı Qubadlı və Laçın rayonlarında, Kiçik Qızılağac Yasaqlığı Lənkəran rayonunda, Daşaltı Yasaqlığı Şuşa rayonunda, Qızılca Yasaqlığı Gədəbəy rayonunda, Arazboyu Yasaqlığı Zəngilan rayonunda, Qəbələ Yasaqlığı Qəbələ rayonunda, Qax Yasaqlığı Qax rayonunda, Hirkan Yasaqlığı Lənkəran və Astara rayonlarında, digər Arazboyu Yasaqlıqları Sədərək, Şərur, Kəngərli, Babək, Culfa və Ordubad rayonlarında, Zaqatala Yasaqlığı Zaqatala və Balakən rayonlarında, Arpaçay Yasaqlığı Şərur, Kəngərli, Babək və Şahbuz rayonlarında, Rvarud Yasaqlığı isə Lerik rayonunda yerləşir.

Azərbaycanda xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili və genişləndirilməsi ölkənin ekoloji siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Bu ərazilər təbiətin qorunması, bioloji müxtəlifliyin qorunması və ekoloji tarazlığın təmin olunması baxımından strateji əhəmiyyətə malikdir. Eyni zamanda bu proses ölkənin beynəlxalq ekoloji öhdəliklərinin icrasına, həmçinin Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına töhfə verir.

Ümumdünya Statistika Günü qeyd edilərkən, bütün digər sahələrdə olduğu kimi bu sahədə də statistik məlumatların əhəmiyyəti bir daha ön plana çıxır. Çünki dəqiq və etibarlı statistika olmadan nə təbiətin vəziyyətini qiymətləndirmək, nə də dayanıqlı inkişaf məqsədlərinə nail olmaq mümkündür. Statistik məlumatların gücü sayəsində təbiətin səsini rəqəmlərdə eşitmək, elmi əsaslı qərarlarla ekoloji tarazlığı qorumaq və gələcək nəsillərə sağlam mühit miras qoymaq mümkündür.

***Təranə Şahbalayeva***

Dövlət Statistika Komitəsinin Energetika və ətraf mühit statistikası şöbəsinin aparıcı məsləhətçisi

# "Azad Zəngilanın bərpası sürətlə gedir"




"Zəngilan rayonunun işğaldan azad olunması Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindəki uğurlarından biri olub. Rayonun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı və Zəngilan şəhərinin azad edilməsi Azərbaycan Silahlı Qüvvələrinin əməliyyat hazırlığı və strateji üstünlüyünü nümayiş etdirdi. Bu qələbə həm də bölgədə sülhün və təhlükəsizliyin bərpasına əhəmiyyətli töhfə verdi. Oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev xalqa növbəti müraciətində Zəngilan rayonunun işğaldan azad edildiyini elan etdi. Nəticədə Zəngilan şəhəri, rayonun 4 qəsəbəsi və 49 kəndi düşmən işğalından xilas olunaraq azad edildi və ərazilərə Azərbaycanın üçrəngli bayrağı ucaldıldı. Zəngilan döyüşləri İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən ən uğurlu Arazboyu əməliyyatlarından biri kimi tarixə düşdü". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib.

K.Bayramov qeyd edib ki, Zəngilanın işğaldan azad olunması 132 kilometr Azərbaycan-İran sərhədinin tam bərpasını təmin edib və bir sıra hərbi-strateji üstünlüklər yaradıb: "İranla sərhəd nəzarətə götürülməklə düşmənin İrana çıxışı bağlanıb, Ermənistana hərbi və humanitar yüklərin çatdırılmasının qarşısı alınıb. Eyni zamanda, Qubadlı mühasirəyə alınıb qısa zamanda azad edilib, Zəngəzur bölgəsi tam nəzarətə götürülüb. Beləliklə, Azərbaycan Ordusu İrəvan-Gorus-Laçın-Şuşa-Xankəndi yoluna nəzarət etmək imkanına malik olub. Hərbi ekspertlər vurğulayırlar ki, Zəngilanın azad olunması Qarabağın taleyinin həllində həlledici rol oynayıb, çünki bu əməliyyatla həm Vardenis-Ağdərə, Stok-Kəlbəcər yolları, həm də İrəvan-Gorus-Laçın-Şuşa-Xankəndi yolunun bir hissəsi Ermənistan tərəfindən gələn hərbi və qida yükünün qarşısını almağa imkan verib".

Deputat bildirib ki, 2020-ci il noyabrın 26-da "Zəngilanın azad olunmasına görə" medalı təsis edildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 6974 hərbi qulluqçusu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilmişdir. Sözügedən Sərəncama əsasən 20 oktyabr Zəngilan şəhəri günü kimi müəyyən olub.

K.Bayramov qeyd edib ki, Zəngilan rayonu bu gün yeni inkişaf dövrünü yaşayır və bərpa-quruculuq işləri sürətlə davam edir. İlk pilot layihə Ağalı kəndində icra olunub və əhalinin köçürülməsi Böyük Qayıdışın ilk mərhələsini təşkil edib. Ağalı ağıllı kəndi bu gün dünyanın ən müasir kəndlərindən biri sayılır, burada məşğulluq, məktəb, bağça, tibb məntəqəsi və bütün sosial xidmətlər - "ASAN", "DOST", kiçik və orta biznesə dəstək xidmətləri mövcuddur.

Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi prosesində Zəngilanın xüsusi rolu var. Zəngilanda günəş enerjisinin böyük potensialı var. Bu şəhərin Baş planı artıq təsdiq edilib, infrastruktura böyük vəsait ayrılıb və bir neçə yaşayış layihəsi icra edilməkdədir. Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun inşasının böyük strateji əhəmiyyəti var. Bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Buradan dəmir və avtomobil yolları da keçəcək və Naxçıvana yol açılacaq. Zəngilan-Horadiz avtomobil yolu strateji əhəmiyyəti ilə seçilir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Zəngilanda həyata keçirilən önəmli layihələrdən biri də Heydər Əliyev Fondu tərəfindən icra olunub. Zəngilan məscidinin bərpası ilə bilavasitə Fond məşğul olub. İşğal dövründə ermənilər tərəfindən xalqımıza məxsus olan milli-mənəvi dəyərlərin erməniləşdirilməsinə cəhd göstərilib. Buna nail olmadıqda isə onları dağıdıb, təhqir ediblər. Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Yeni məscid binası düzbucaqlı plan quruluşlu, iki minarəli və üç nefli olaraq layihələndirilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Zəngilanda təkcə pilot yaşayış layihəsi deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsi həyata keçirilir. "Dost Aqropark" adlanan bu layihə Azərbaycan və Türkiyə şirkətlərinin birgə müəssisəsidir və həmin aqropark artıq fəaliyyətdədir.

K.Bayramov əlavə edib ki, Zəngilanın azad olunmasından sonra həyata keçirilən genişmiqyaslı bərpa və inkişaf layihələri rayonun strateji, iqtisadi və sosial əhəmiyyətini artırır. Nəqliyyat və enerji infrastrukturunun yaradılması bölgənin dayanıqlı inkişafını təmin edir, beynəlxalq əlaqələr və ticarət üçün əlverişli şərait yaradır. Eyni zamanda, mədəni və dini irsin bərpası, pilot yaşayış və aqropark layihələrinin icrası yerli əhalinin həyat səviyyəsini yüksəldir və bölgənin gələcək nəsillər üçün firavan məkan olmasına zəmin hazırlayır. Zəngilan həm regionun təhlükəsizliyi, həm də iqtisadi və sosial inkişafı baxımından nümunəvi modelə çevrilmişdir".

***Səbinə Hüseynli***



*Fuad HÜSEYNZADƏ*

***Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın katibi, Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri***

# Azərbaycan–Qazaxıstan münasibətləri: strateji müttəfiqliyin yeni mərhələsi



Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər son illərdə siyasi etimad, arşılıqlı hörmət və ortaq maraqlar üzərində qurulan yüksək səviyyəli strateji tərəfdaşlıqla xarakterizə olunur. Tarixi, mədəni və mənəvi köklərlə bağlı olan iki qardaş xalq bu gün regionun sabitliyi, iqtisadi inkişafı və türk dünyasının birliyinə xidmət edən birgə təşəbbüslərin önündə gedir. Prezident cənab İlham Əliyevin 18 oktyabr 2025-ci ildə "Kazinform" agentliyinə verdiyi müsahibə bu istiqamətdə görülən işlərin miqyasını və gələcəyə yönəlik vizionu bir daha nümayiş etdirdi.

Azərbaycan–Qazaxıstan əlaqələrinin təməlində qarşılıqlı etimad və dövlət başçıları səviyyəsində formalaşan səmimi münasibətlər dayanır. Prezident cənab İlham Əliyev və Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə iki ölkə arasında əlaqələr ardıcıl şəkildə genişlənib. Son üç ildə dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyi, mütəmadi təmaslar və strateji məsələlərin müzakirəsi bu münasibətlərin səmərəsini açıq şəkildə göstərir.

Füzuli şəhərində Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi qardaşlıq əlaqələrinin parlaq simvollarından biridir. Bu mədəniyyət ocağında artıq yüzlərlə uşaq incəsənət təhsili alır ki, bu da xalqlarımız arasında mənəvi yaxınlığın göstəricisidir.

İkitərəfli iqtisadi münasibətlər son illərdə sabit artım templəri ilə diqqət çəkir. 2024-cü ildə 470 milyon dollar təşkil edən qarşılıqlı ticarət dövriyyəsi 2025-ci ilin ilk səkkiz ayında 547 milyon dollara çataraq üç dəfə artım nümayiş etdirib. Bu, Orta Dəhliz vasitəsilə nəqliyyat-logistika əməkdaşlığının genişlənməsi, infrastrukturun modernləşdirilməsi və birgə layihələrin səmərəliliyinin nəticəsidir.

Bu günə qədər ölkəmizdə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturunun fəaliyyət göstərməsi ikitərəfli iqtisadi əlaqələrin dərinliyini sübut edir. Azərbaycan investisiyalarının Qazaxıstana həcmi 225 milyon dollar, Qazaxıstanın Azərbaycana sərmayəsi isə 136 milyon dollar təşkil edir. Bu göstəricilər uzunmüddətli tərəfdaşlığın davamlı inkişafını və qarşılıqlı maraqları əks etdirir.

Orta Dəhliz iki ölkə arasında iqtisadi əlaqələrin əsas sütunlarından birinə çevrilib. 2024-cü ildə bu dəhliz üzrə tranzit daşımalarının həcmi 20 faiz artaraq 3,5 milyon tondan çox olub. 2022-ci ildə Aktauda imzalanmış "2022–2027-ci illər üçün Yol Xəritəsi" üçtərəfli (Azərbaycan–Qazaxıstan–Türkiyə) əməkdaşlığın sistemli əsaslarını müəyyənləşdirib.

Enerji sahəsində də tərəfdaşlıq uğurla inkişaf edir. SOCAR ilə "KazMunayQaz" şirkəti arasında Aktau–Ceyhan marşrutu üzrə Qazaxıstan neftinin tranziti barədə razılaşma enerji təhlükəsizliyinə mühüm töhfədir. Həmçinin Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin çəkilməsi layihəsi rəqəmsal inteqrasiyanın genişlənməsi və regionun informasiya təhlükəsizliyinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan və Qazaxıstan arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq yeni inkişaf mərhələsinə qədəm qoyub. 2024-cü ildə imzalanan birgə memorandumlar enerji sistemlərinin birləşdirilməsini, ekoloji təmiz texnologiyaların tətbiqini və yaşıl iqtisadiyyatın inkişafını hədəfləyir.

Prezident cənab İlham Əliyev Xəzər dənizində ekoloji tarazlığın pozulması və suyun səviyyəsinin azalması məsələsini xüsusi vurğulayaraq, bütün Xəzəryanı dövlətləri birgə tədbirlər görməyə çağırıb. Dənizin dayazlaşması biomüxtəlifliyə və regionun iqtisadi potensialına real təhlükə yaradır. Bu baxımdan, Azərbaycan və Qazaxıstanın elmi əməkdaşlığı və ekoloji təşəbbüsləri mühüm əhəmiyyət daşıyır.

Türk Dövlətləri Təşkilatı (TDT) iki ölkə arasında qardaşlıq əlaqələrinin güclənməsində mühüm rol oynayır. Ölkə başçımızın qeyd etdiyi kimi, 2009-cu ildə Naxçıvanda əsası qoyulan bu təşkilat türk dünyasının siyasi, iqtisadi və humanitar birliyinin əsas dayağına çevrilib.

TDT-nin Şuşa və Qəbələdə keçirilən Zirvə görüşləri, qəbul edilən sənədlər və imzalanan bəyannamələr Türk dövlətlərinin həmrəyliyinin artmasına xidmət edir. 2026-cı ildə Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması da ortaq elmi və mədəni dəyərlərin yaşadılmasına yönəlmiş mühüm hadisə olacaq.

Xalqlarımız arasında çoxəsrlik dostluq əlaqələri mədəni əməkdaşlıqda da öz parlaq ifadəsini tapır. Son illərdə təşkil olunan "Azərbaycan Mədəniyyəti Günləri" və "Qazaxıstan Mədəniyyəti Günləri", eləcə də Kemel Tokayev və Mir Cəlal Paşayevin yubileylərinə həsr edilmiş tədbirlər qarşılıqlı hörmət və ədəbi əlaqələrin dərinliyini göstərir.

Təhsil, elm və incəsənət sahələrində birgə layihələrin həyata keçirilməsi, gənclər arasında mübadilələrin təşkili xalqların birbirinə daha da yaxınlaşmasına şərait yaradır. Bu, həm də Türk dünyasının ortaq mədəni irsinin qorunması baxımından mühüm amildir.

Azərbaycan və Qazaxıstan arasında münasibətlər bu gün regionda strateji sabitliyin, iqtisadi inteqrasiyanın və türk birliyinin möhkəmlənməsinin mühüm dayağına çevrilib. Prezident cənab İlham Əliyevin "Kazinform" agentliyinə verdiyi müsahibə göstərir ki, iki qardaş ölkənin əməkdaşlığı yalnız regional çərçivəni aşaraq, beynəlxalq miqyasda nümunəvi model kimi dəyərləndirilə bilər.

Gələcək illərdə iqtisadi, enerji, nəqliyyat, elm və mədəniyyət sahələrində reallaşacaq birgə layihələr Azərbaycan–Qazaxıstan münasibətlərini daha da möhkəmləndirəcək və Türk dünyasının birliyinə, regionun rifahına mühüm töhfə verəcəkdir.



# "Təhsil sahəsində də oxşar vəziyyət müşahidə olunur"

## PSİXOLOQ AÇIQLADI

Son illərdə süni intellektin inkişafı insan həyatının bir çox sahəsində dərin və əhəmiyyətli dəyişikliklərə səbəb olub. Artıq süni intellekt yalnız elm və texnologiya sahəsində deyil, gündəlik həyatımızda da öz təsirini göstərməyə başlayıb. Əmək bazarından tutmuş təhsilə, səhiyyədən məişət işlərinə qədər bir çox sahədə süni intellektin tətbiqi həyat tərzimizi dəyişir. İnsanların iş üsulları, qərarvermə mexanizmləri və informasiya əldə etmək forması bu texnologiyaların təsiri altında yenidən formalaşır. Bu mənada süni intellekt insan psixologiyasına da təsir göstərmədən yan keçmir.

Mövzu ilə bağlı psixoloq Vüsalə Əmiraslanova öz fikirlərini SİA-ya bölüşüb: "Müasir dövrdə süni intellekt həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. O, təhsil prosesində, eləcə də gündəlik insan fəaliyyətində mühüm rol oynayır. Dərs prosesində süni intellekt tələbələrə müxtəlif mövzular üzrə məlumat toplamaqda, suallara cavab tapmaqda və biliklərini genişləndirməkdə yardım edir. Lakin bununla yanaşı, bəzi hallarda bu texnologiyanın mənfi tərəfləri də özünü göstərir. Xüsusilə, insanlar sağlamlıq və psixologiya ilə bağlı problemlərində süni intellektə müraciət etməyə üstünlük verirlər. Halbuki bu sahələrdə düzgün diaqnoz və ya psixoloji məsləhət yalnız mütəxəssis tərəfindən verilməlidir. Virtual mənbələrdən alınan cavablar bəzən səhv istiqamət göstərə, nəticədə insanın sağlamlığına və ruhi vəziyyətinə mənfi təsir göstərə bilər.

Təhsil sahəsində də oxşar vəziyyət müşahidə olunur. Bəzi tələbələr tapşırıqları asan yolla, yəni süni intellektin köməyi ilə yerinə yetirməyə çalışır. Lakin bu zaman yazılar şablon xarakter daşıyır, müəllimlər tərəfindən plagiyat kimi qiymətləndirilir və yaradıcı düşüncə arxa plana keçir. Nəticə etibarı ilə süni intellektdən düzgün istifadə mədəniyyətinin formalaşması vacibdir. O, insanın düşüncə qabiliyyətini əvəz etməməli, əksinə, onu dəstəkləyən bir vasitə olmalıdır. İnsan öz ağlını, bilik və təcrübəsini texnologiyanın köməyi ilə birləşdirdikdə, həm elmi, həm də şəxsi inkişaf üçün daha sağlam nəticələr əldə edilə bilər".

***Səbinə Hüseynli***







# Kənd və şəhər məktəbləri arasında keyfiyyət fərqləri: səbəblər və həll yolları





***Müasir dövrdə təhsilin keyfiyyəti ölkənin sosial-iqtisadi inkişafını müəyyən edən əsas amillərdən biridir. Təhsildə bərabərlik prinsipi isə cəmiyyətin hər bir üzvünə eyni imkanların yaradılmasını nəzərdə tutur. Lakin Azərbaycanda bu bərabərlik tam şəkildə təmin olunmayıb. Xüsusilə region məktəbləri ilə paytaxt və böyük şəhərlərdəki məktəblər arasında həm maddi-texniki baza, həm müəllim hazırlığı, həm də tədris keyfiyyəti baxımından nəzərəçarpacaq fərqlər mövcuddur.***

Bu fərqlər nəticəsində regionlarda yaşayan uşaqların tədris resurslarına çıxışı, xarici dil bilikləri, rəqəmsal bacarıqları və ali məktəblərə qəbul göstəriciləri şəhər məktəbləri ilə müqayisədə daha aşağı səviyyədə qalır. Halbuki bərabər təhsil imkanları həm sosial ədalətin qorunması, həm də regionların dayanıqlı inkişafı üçün vacib şərtdir. Buna görə də ölkədə təhsilin mərkəzləşmiş modelindən daha inklüziv və region yönümlü siyasətə keçid mühüm əhəmiyyət kəsb edir. S A mövzu ilə bağlı araşdırma aparıb.

### İnfrastruktur və texnoloji baza

Bir çox region məktəblərində hələ də internet bağlantısı zəif, laboratoriyalar və kompüter otaqları məhduddur. Bu, şagirdlərin müasir tədris üsullarından yararlanmasına mane olur.

**Həll istiqamətləri:**

Region məktəblərinin fiber-optik internet şəbəkəsinə qoşulması,

Rəqəmsal təhsil platformalarına (məsələn, “Virtual məktəb”) çıxışın genişləndirilməsi,

Hər məktəbdə ən azı bir müasir təchizatlı STEM laboratoriyasının yaradılması.

Müəllim kadrlarının keyfiyyəti və motivasiyası

Regionlarda təcrübəli və ixtisaslı müəllim çatışmazlığı problemi qalmaqdadır. Gənc



müəllimlər əksər hallarda maddi və sosial şəraitin məhdudluğu səbəbindən kənd məktəblərində uzunmüddətli işləmək istəmirlər.

**Həll istiqamətləri:**

“Müəllimlər üçün region stimullaşdırma proqramları” – maaş əlavələri, yaşayış şəraiti və sosial paketlər,

Distant təlim və ixtisasartırma kurslarının region müəllimləri üçün əlçatan olması,

Müəllimlərə yerli innovativ layihələrdə iştirak imkanları yaratmaq.

### Tədris proqramları və resursların yenilənməsi

Region məktəblərində dərs vəsaitləri və əlavə tədris materiallarının təminatı şəhər məktəblərinə nisbətən daha gecikmiş olur.

**Həll istiqamətləri:**

Eyni vaxtda və eyni səviyyədə elektron dərsliklərin tətbiqi,

Regional tədris mərkəzlərinin yaradılması (müxtəlif rayon məktəblərinə xidmət edən baza mərkəzlər),

Multimedia və audio-vizual tədris resurslarının paylanması.

### Sosial və psixoloji amillər

Regionlarda yaşayan şagirdlərin motivasiyasına ailə mühiti, iqtisadi çətinliklər və maarifləndirmə səviyyəsi də təsir göstərir. Bəzi valideynlər uşaqların təhsildən çox əmək fəaliyyətinə cəlb olunmasını üstün tuturlar.

**Həll istiqamətləri:**

Valideynlər üçün maarifləndirici görüşlər və təlimlər,

Regionlarda peşə yönümlü təhsil proqramlarının gücləndirilməsi,

Şagirdlər üçün psixoloji dəstək və motivasiya proqramları.

### Dövlət siyasəti və tərəfdaşlıq

Təhsildə regional bərabərlik yalnız dövlətin deyil, özəl sektor və ictimai təşkilatların birgə əməkdaşlığı ilə mümkündür.

**Həll istiqamətləri:**

Özəl şirkətlərin region məktəblərinə sosial investisiyalar ayırması,

Təhsil Nazirliyi və BMT-nin müvafiq qurumlarının birgə layihələrinin genişləndirilməsi,

Yerli təhsil fondlarının yaradılması – regionlarda təhsil təşəbbüslərini maliyyələşdirmək üçün.

**Təkliflər**

Region və şəhər məktəbləri arasında bərabərlik yaratmaq təkcə maddi məsələ deyil, sistemli təhsil siyasəti, sosial motivasiya və davamlı investisiya tələb edən bir prosesdir.

**Nəticə olaraq:**

İnfrastruktur və rəqəmsal imkanların bərabərləşdirilməsi,

Müəllim kadr siyasətinin yenilənməsi,

Təhsil resurslarının bərabər paylanması,

Valideyn və şagird motivasiyasının artırılması,

Dövlət və özəl sektorun birgə fəaliyyəti istiqamətində əsas prioritetlər olmalıdır.

Bu addımlar atıldığı təqdirdə, gələcəkdə regionlarda doğulan hər bir uşağın təhsil keyfiyyəti paytaxt məktəbində oxuyan yaşıdı ilə bərabər səviyyədə olacaq. Bu isə uzunmüddətli dövrdə ölkənin həm insan kapitalını gücləndirəcək, həm də regional inkişafı sürətləndirəcək.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Mahmud Abbas iqamətgahını Ramallahdan Qəzzaya köçürür

***Yüz illərdir ki, Yaxın Şərqdə müharibələr, daxili qarşıdurmalar səngimək bilmir. İsrailin 1949-cu ildə öz dövlətini qurmasından sonra Yaxın Şərqdə müharibələr daha qanlı və amansız xarakter aldı. Çünki ərəb dövlətləri ərazilərində düşmən hesab etdikləri yəhudilərin timsalında İsrail dövlətinin yaranması ilə barışmır və onu neytrallaşdırmaq üçün geniş hərbi basqınlar həyata keçirirlər. Ancaq ərəblərin İsrailin qarşısında gücsüz olduğu üzə çıxır.***



Səbəbi də İsrailin arxasında böyük hərbi, siyasi, maliyyə gücünə malik ABŞ-ın dayanmasıdır. Müəyyən hallarda Avropanın əksər ölkələri də İsrailə silah-sursat, hərbi texnika yardımı göstərirlər. Yada salmaq lazımdır ki, HƏMAS-ın 2023-cü ilin oktyabrın 7-də İsrail ərazisinə daxil olaraq konsert salonunda 2 minə yaxın insanı öldürməsindən və 250 yəhudini girov olaraq özləri ilə Qəzzaya aparmalarından dərhal sonra bütün Avropa ölkələri və ABŞ səfərbər oldular.





Bu zaman ABŞ başda olmaqla Avropa ölkələrinin rəhbərləri İsrailə səfər edib, Netanyahunun yanında olduqlarını bəyan etdilər. "Arxalı köpək qurd basar" el məsəlində deyildiyi kimi İsrail böyük güclərin hərbi, siyasi, maliyyə dəstəyinə güvənib Qəzzanı xarabazarlıqlara çevirdi, 70 minə yaxın dinc qəzzalını öldürdü ki, onların da az qala yarısı körpələr, yeniyetmə uşaqlar olmuşdur. Ümumilikdə 2,5 milyonluq Qəzzanın 90 faiz əhalisi sağ qalmaq ümidi ilə bölgəni tərk etmişdir. Şəhərdə qalan insanlar isə aclıq və səfalət içində ölümlərini gözləməyə məcbur edilmişdir. Dəfələrlə BMT-nin müəyyən strukturları, ayrı-ayrı ölkələr İsrailin vəhşiliyini, insanlığa yönələn cinayətlərini sərt şəkildə tənqid etsə də, Netanyahu hakimiyyəti öz əməllərindən əl çəkməmiş, əksinə fəaliyyətini daha amansız formada davam etdirib. Bundan çıxış edən Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas dünya ictimaiyyətini İsrailə təzyiqlər etməyə və Fələstin xalqının yanında olmağa çağırıb. Mahmud Abbas BMT Baş Assambleyasının 80-ci sessiyasında videobağlantı ilə çıxışı zamanı bildirib Qəzza Fələstinin ayrılmaz hissəsidir: "Fələstin xalqı işğal altında sağ qalmaq üçün mübarizə aparır. Qəzzada iki milyon fələstinli aclığa məhkum edilib".

## "Qüds ürəyimizdəki ləl-cəvahirdir"

Çıxışı zamanı Fələstin Prezidenti qeyd edib ki, BMT-də mindən çox qətnamə qəbul edilsə də, onlardan heç biri yerinə yetirilmədi: "Qətnamələrin heç biri bu faciəvi vəziyyəti dayandırmağa kifayət etmədi. Qəzzada müharibəni təcili və daimi olaraq dayandırmalıyıq. İkincisi, BMT agentlikləri bu torpaqlara girməli və aclıqdan silah kimi istifadə edilməməlidir. Bizə yardım göndərən ölkələrin qarşısındakı maneələr aradan qaldırılmalıdır. Hər iki tərəf girovları azad etməli və Fələstin ərazilərinin ilhaqı dayandırılmalıdır".

Fələstin prezidenti dinc, hüquqi, demokratik mübarizəni davam etdirəcəklərini söyləyib: "Nə qədər əziyyət çəksək də, iradəmiz qırılmayacaq. Fələstin bizimdir. Qüds ürəyimizdəki ləl-cəvahirdir. Paytaxtımızdır. Vətənimizi, torpağımızı tərk etməyəcəyik. Biz bu müqəddəs torpaqlardan ümid mesajları yaymağa, sülh körpüləri qurmağa davam edəcəyik".

Dünya ictimaiyyətinin narazılıqları, ayrı-ayrı ölkələrdə əhalinin İsrail və ABŞ əleyhinə keçirdiyi aksiyalar, nəhayət rəsmi Vaşinqtonu vassalına Qəzzada atəşkəsə nail olmaq göstərişini verdi. İsrail göstərişi əməl etmək istəməsə də, başqa çıxış yolu olmadığından tələbləri yerinə yetirməyə məcbur



oldu. Beləliklə, Misirin Şarm əl-Şeyx şəhərində keçirilən "Sülh Sammiti" çərçivəsində ABŞ, Misir, Qətər və Türkiyə liderləri Qəzza zolağında atəşkəsin təmin edilməsinə dair razılaşma sənədinə imza atıblar. Sənədin imzalanması İsrailin dinc əhalini öldürməsinin qarşısını ala biləcəyinə ümidləri artırır. D.Trampın müəllifliyi ilə hazırlanan 20 bəndlik sülh razılaşmasına əsasən HƏMAS girovları geri qaytarır və əvəzində İsrail ordusunu Qəzzadan geri çəkməklə yanaşı, həbs etdiyi 2 minə yaxın fələstinlini azad edir.

Razılaşma həm də Qəzzada sabitliyin bərqərar olması və bölgəyə humanitar yardımın artırılmasını nəzərdə tutur. ABŞ prezidenti Donald Tramp sammit zamanı çıxış edərək Qəzza razılaşmasının "əhatəli sənəd" olduğunu bildirib: "Bu sənəd bölgədə yeni qaydalar və prinsiplər formalaşdıracaq. Heç kim belə bir razılaşmanın mümkün olacağına inanmırdı, amma nəhayət biz Yaxın Şərqdə sülhə nail olduq. Qəzzanın yenidən qurulması isə bu prosesin ən asan hissəsi olacaq".

## Liderlər razılaşmaları yüksək qiymətləndirirlər

ABŞ prezident D.Tramp razılaşmanın Yaxın Şərqdə sabitliyin bərpası üçün başlanğıc nöqtəsi olacağını söyləyib: "Biz Qəzzada müharibəni dayandırdıq, bu isə güclü bir Yaxın Şərqin başlanğıcıdır. Ümid edirəm ki, daha çox ölkə də Əbraham razılaşmalarına qoşulacaq". Tramp çıxışını belə yekunlaşdırıb: "Bu, dünya tarixində mühüm bir an olacaq və biz Yaxın Şərqin təhlükəsiz bir yerə çevrilməsini təmin edəcəyik."

Sammitin təşkilatçılarından olan Misir prezidenti Əbdülfəttah əs-Sisi sammitdə çıxışı zamanı Qəzza razılaşmasını "regionda yeni sülh dövrünün başlanğıcı" adlandırıb. O bildirib ki, iki dövlətli həll Yaxın Şərqdə dayanıqlı sülhün yeganə yoludur.

Pakistanın baş naziri Şahbaz Şərif isə çıxışında ABŞ prezidenti Donald Trampın sülh prosesindəki rolunu xüsusi qeyd edib. O bildirib: "Sülh, prezident Trampın yorulmaz səyləri nəticəsində mümkün oldu". Şərif əlavə edib ki, Pakistan ABŞ prezidentini Nobel Sülh Mükafatına namizəd göstərib.

Misirdə keçirilən sülh sammitində 20-dən çox ölkənin liderləri iştirak edib. Onlar arasında Azərbaycan, Türkiyə, İndoneziya prezidentləri, İordaniya kralı, Qətər əmiri, Küveytin baş naziri, Bəhreyn kralı, Fələstin rəhbəri, həmçinin Fransa, Kipr prezidentləri və Almaniya kansleri də var. Eyni zamanda, Böyük Britaniya, İtaliya, İspaniya, Yunanıstan, Ermənistan, Macarıstan, Pakistan, Kanada, Norveç və İraqın hökumət başçıları, eləcə də Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti sammitə qatılıb.Toplantıda BMT-nin baş katibi, Ərəb Dövlətləri Liqasının baş katibi, Avropa Şurasının sədri, Oman xarici işlər naziri, Hindistan XİN nümayəndəsi və Yaponiyanın Qahirədəki səfiri də iştirak edir.

## ABŞ Fələstin dövlətini tanıya bilər

Misirin Şarm əl-Şeyx şəhərində keçirilən "Sülh Sammiti"də dünya siyasətinin müəyyənləşdirilməsində xüsusi çəkiyə və nüfuza malik liderlərin iştirak etməsi ona əsas verir ki, bundan sonra İsrail hərbi gücdən istifadə etməyə cürət etməyəcək. Əks halda İsrail varlığını itirə bilər. ArtıqTürkiyə, Kanada, İspaniya və digər dövlətlərin başçıları İsrailə ciddi şəkildə xəbərdarlıq ediblər. Məhz xəbərdarlıqdan sonra Qəzzada sakitlik hökm sürməyə başlayıb. İsrail Qəzaya humanitar yardımların çatdırılması üçün geniş imkanlar yaradır.

Bu arada bəzi ərəb ölkələrinin media orqanlarında yazılanlara görə, sakitliyin yaranmasından sonra Fələstin prezidenti Mahmud Abbas iqamətgahını Ramallahdan Qəzzaya köçürməyi planlaşdırır. Məlumatı M.Abbas administrasiyası da təsdiqləyib. Məsələ ilə bağlı Fələstin prezidenti M.Abbası bildirib ki, Qəzzada idarəetməni təmin etdikdən sonra dost ölkələrin dəstəyi ilə anklavda təmir, bərpa, tikinti işlərinə başlanılacaq: "Fələstinin paytaxtı Qüdsdür. Bu şəhər bizim üçün, ümumilikdə islam dünyası üçün müqəddəs şəhərdir. Biz heç zaman öz qibləmizdən, dəyərlərimizdən imtina etmərik. Çox yaxın zamanlarda müqəddəs şəhərimizə də sahib çıxacağıq".

Proqnozlara görə, Fələstinin hakimiyyət orqanları Qəzzaya köçürülsə, o zaman Ramallahdakı xarici səfirliklər də anklava köçürüləcəklər. Bundan sonra bölgədə tam sabitlik yaranacaq. Həyata keçirilən proseslərin nəticəsi olaraq ABŞ Fələstini dövlət olaraq tanıyacaq. Nəticədə İsrail Vaşinqtonun tələbinə zidd getməkdən çəkinərək Fələstini 1974-cü il sərhədləri daxilində dövlət olaraq tanımağa məcbur olacaq. Bununla da 3 min illik ərəb-yəhudi qarşıdurması sona çatacaq.

***İLHAM ƏLİYEV***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi " istiqaməti çərçivəsində hazırlanıb.*

***Media azadlığı termini ənənəvi mətbuat azadlığının sərhədlərini çoxdan aşaraq radio, televiziya, qəzet və jurnallardan əlavə həm də internet kimi elektron medianı əhatə edir. Media azadlığı ümumiyyətlə demokratik cəmiyyətlər üçün zəruri hesab olunur. Çünki media ictimai müzakirə və rəy vasitəsidir və həqiqəti axtarmaq, ictimaiyyəti maarifləndirmək funksiyalarını yerinə yetirir.***

# İfadə azadlığı xəbər çirkliliyinə necə səbəb olur?




Azad media demokratik prinsipin – şəffaflığın təmin olunmasına kömək edir. Bu şəffaflıq həm ictimai məsələlərin, problemlərin işıqlandırılmasına, həm də hökumətin həyata keçirdiyi siyasət haqqında məlumatın ictimaiyyətə çatdırılmasına aiddir. Bu isə öz növbəsində ictimai müzakirələrə və ictimaiyyəti maraqlandıran məsələlərin araşdırılmasına imkan verir. Media həm də məsul şəxslərə vətəndaşların rəyi və narahatlıqları haqqında məlumat ötürür. Medianın effektivliyini azalda biləcək bir neçə səbəb var və bu səbəblərdən ən başlıcası media istehlakçılarının savadlılığının azalması və ictimaiyyət tərəfindən media istehlakının zəif olmasıdır.



Media azadlığı həm də media məsuliyyəti və hesabatlılığı ehtiva edir. Əgər azad media öz həyati funksiyalarını yerinə yetirmək niyyətindədirsə, o zaman ictimaiyyətə medianın həqiqəti axtardığına və ictimai maraqların müdafiəsi üçün fəaliyyət göstərdiyinə əminlik lazımdır. Yəni media orqanı bu əminliyi öz fəzliyyəti ilə yaratmalıdır. Bütün sivil ölkələrdə KİV haqqında qanun medianın ictimai maraq parametrləri çərçivəsində fəaliyyət göstərməsini təmin etməyə çalışır, əks halda xaotik vəziyyət yaranar, dezinformasiya, əsilsiz xəbərlər ayaq açıb yeriyər. Bununla belə, bir çoxları düşünür ki, bu qaydalar media azadlığına müdaxilə edir, habelə ictimaiyyətin media mənbələrini sərbəst seçmək hüququnu pozur.



Lakin dövrümüzdəki informasiya əjdahasını – sosial şəbəkələri nəzərə alaraq demək olar ki, nəzarət mexanizmi heç də həmişə işə yaramır. İnternet media azadlığında çox problemlər yaradır. Doğrudur, internet, sosial şəbəkələr, özəl xəbər kanalları kimi tənzimlənməmiş vasitələr ictimaiyyətin mediaya çıxışını demokratikləşdirir və ictimai müzakirələrdə iştirakını artırır. Lakin unutmaq lazım deyil ki, tənzimlənməmiş kommunikasiya kanalları informasiya çirkliliyi yaradaraq yalan məlumatı artırır və ictimai rəyi təhrif edir.

İfadə azadlığı demokratik cəmiyyətin təməl daşlarından biridir. Lakin bu azadlıq hüdudunu bilməmək, özbaşınalıq deyil. Bu azadlıq digər əsas hüquq və azadlıqlarla, xüsusən də şəxsi həyatın toxunulmazlığı hüququ ilə tarazlaşdırılmalıdır. Bu gün sosial media platformaları insanların öz fikirlərini yaymaq üçün istifadə etdikləri ən geniş yayılmış media vasitələrdən birinə çevrilib, bu da ifadə azadlığı ilə fərdi hüquqlar arasındakı ziddiyyətləri daha qabarıq şəkildə göstərir.




Sosial şəbəkələr istifadəçilərin öz ifadə azadlığını effektiv şəkildə həyata keçirə bildiyi bir mühit olsa da, bəzən bu azadlıq şəxsi hüquqların pozulması ilə də nəticələnir. Bu mübahisəni tarazlaşdırmaq üçün hüquqi çərçivələrdən çıxılmamalıdır. Bu balansı qurarkən istifadəçilər mövcud qanunvericiliyi bilməli, Konstitusiyadan xəbərdar olmalı, insanların hüquq və azadlıqlarına müdaxilə olunacaq sərhədləri tanımalıdır. İfadə azadlığı o demək deyil ki, sizin hər istədiyinizi söyləmək hüququnuz var. Doğrudur, ifadə azadlığı hər hansı senzura ilə üzləşmədən özünüzü azad şəkildə ifadə etməyə imkan verir. İfadə azadlığı şəxsi hüquqlara məhəl qoymayacaq qədər azad olmamalıdır. Unutmaq lazım deyil ki, bir insanın azadlığı digər insanın sərhədlərinin başladığı yerdə bitir.



Avropa İnsan Hüquqları Konvensiyasının ifadə azadlığı ilə bağlı 10-cu maddəsinin 1-ci bəndində deyilir: "Hər kəsin ifadə azadlığı hüququ var. Bu hüquqa fikir azadlığı və dövlət orqanlarının müdaxiləsi olmadan və ya sərhədləri aşmadan məlumat və ya ideyaları almaq və yaymaq azadlığı daxildir." Yəni, insanların dövlətin müdaxiləsi olmadan öz fikirlərinə sahib olmaq, məlumat və fikir mübadiləsi aparmaq azadlığı əsas hüquq kimi müəyyən edilir.

Doğrudur, digər hüquqi institutlarla paralel olaraq mətbuat da müasir demokratik dövlətin müstəqil strukturu hesab edilir, xəbər mediası vətəndaşları məlumatlandırır, ictimai sahədə demokratik müzakirələrə şərait yaradır. Lakin yeni media texnologiyaları ilə əhatə olunmuş müasir sosial şəbəkələr yeni ictimai sfera yaradır və internet fenomeni sosial münasibətləri yenidən qurur. Ənənəvi medianın peşəkarlığı, sözü tərəziyə qoyub sonra yayması alışqanlığı internet mediasında yoxdur. İndi hər sosial şəbəkə istifadəçisi bir kanal yaradıb özünün xəbərini istehsal edə, yaya bilir və beləcə informasiyanın səhihliyi yoxlanılmadan ictimailəşir. Bu da öz növbəsində dezinformasiyanın, xəbər çirkliliyinin əsasını qoyur. Qısaca, ifadə azadlığı daxa çox yalan xəbər bazarına xidmət edir deyə bilərik.

***Lalə Mehralı***

SƏS
21 oktyabr
2025-ci il

# Bankların müştərinin yaxınları ilə əlaqə qurmaları qanunidirmi?



*Müasir bank-müştəri münasibətlərində şəxsi məlumatların qorunması və etik davranış prinsipləri xüsusi əhəmiyyət kəsb edir. Banklar, müştərilərindən topladıqları məlumatları yalnız qanunvericilik çərçivəsində və razılıq əsasında istifadə etməlidirlər. Buna baxmayaraq, bəzi hallarda bankların borclu müştərinin yaxınlarına zəng etdiyi hallar müşahidə olunur.*



## Vəkil mühüm detalları açıqladı

Bu isə bir çox hüquqi və etik suallar doğurur: Bankların müştərinin ailə üzvləri və ya digər yaxınları ilə əlaqə saxlaması qanunidirmi? Bu cür əlaqə şəxsi həyatın toxunulmazlığı prinsiplərini pozurmu? Məsələ ilə bağlı vəkil Şəms Mirzəyeva SİA-ya açıqlamasında bildirib ki, müştərinin bank və ya kreditlə bağlı şəxsi məlumatları yalnız müştərinin özünə və onun yazılı etibarnamə əsasında səlahiyyət verilmiş rəsmi nümayəndəsinə təqdim oluna bilər:

”Bu qayda həm Mülki Məcəllədə, həm də ”Banklar haqqında” Qanunda açıq şəkildə nəzərdə tutulmuşdur. Məlumatların üçüncü şəxslərə ötürülməsi yalnız qanunvericiliklə müəyyən edilmiş hallar çərçivəsində mümkündür. Yəni, müştərinin şəxsi və maliyyə məlumatları yalnız müvafiq dövlət orqanlarının qanuni sorğusu əsasında və ya ”Banklar haqqında” Qanunda göstərilən xüsusi hallarda üçüncü tərəflərlə paylaşına bilər. Bu hallar istisna olmaqla, məlumatların üçüncü şəxslərə verilməsi qanun pozuntusu hesab olunur.

Xüsusilə kredit götürən şəxs bağladığı müqaviləni diqqətlə oxumalı, orada şəxsi məlumatların istifadəsinə dair bəndlərə xüsusi diqqət yetirməlidir. Müştəri bankla bağladığı müqavilədə məlumatlarının hansı hallarda paylaşılmasına razılıq verdiyini və ya vermədiyini bilməlidir.

Əgər müştəri öz məlumatlarının üçüncü şəxslərlə paylaşılmasına açıq şəkildə icazə verməyibsə və bu məlumatlar bank tərəfindən icazəsiz şəkildə yayılıbsa, bu halda müştərinin şəxsi məlumatlarının məxfiliyi pozulmuş sayılır və bu, hüquqi məsuliyyət doğura bilər. Müştəri belə hallarda məhkəməyə və ya aidiyyəti dövlət orqanlarına müraciət edərək hüquqlarının bərpasını tələb edə bilər. Müştərilər şəxsi məlumatlarının qorunması məsələsində həssas olmalı və banklarla münasibətlərində bu hüquqlarını bilməli, həmçinin pozulduğu təqdirdə müvafiq addımlar atmalıdırlar”.

***Arzu Qurbanlı***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Xaçmazda 44 yaşlı kişi güllələnib, qohumu tutulub



***Xaçmazda qəsdən adam öldürməkdə şübhəli bilinən şəxs tutulub. Xaçmaz rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, oktyabrın 19-da saat 19 radələrində Xaçmaz rayonu ərazisində 1981-ci il təvəllüdlü Emin Cəlilovun öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Araşdırma zamanı 1988-ci il təvəllüdlü Rafiq Həbibovun tüfəngdən atəş açaraq Emin Cəlilovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xaçmaz rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi baslanıb. Rafiq Həbibov rayon prokurorluğu tərəfindən şübhəli şəxs qismində tutulub. İbtidai istintaq davam etdirilir.


# Süni intellekt seçdi - Gülşən Hacıyeva “Zeekr 001” qazandı!

***Sia.az xəbər verir ki, Bakcell-in süni intellekt lotereyasında 14 avtomobildən 2-cisinin qalibi bəlli olub! Süni intellektin seçimi ilə Gülşən Hacıyeva növbəti “Zeekr 001” avtomobilinin qalibidir. O, bu gün qalib öz avtomobilini təhvil alıb.Növbəti həftələrdə isə daha 11 “Zeekr 001” öz sahiblərini gözləyir!***




Meqa lotereyada həyəcan zirvədədir və hər gün daha da artır! Qalib olmaq istəyən Bakcell abunəçiləri “Şans” paketlərini əldə etməklə həm lotereyada əlavə şans, həm də şəbəkədaxili danışıq dəqiqələri qazanırlar. Ətraflı məlumat üçün: lotereya.bakcell.com


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**